**Aqşin Əliyev**

# LERİK TARİXİ – MEMARLIQ VƏ ARXEOLOJİ ABİDƏLƏRİ

**Bakı - 2023**

**Elmi rəyçi:** Şöhrət Mirzə oğlu İbadov,
*Tarix üzrə fəlsəfə doktoru*

**Elmi redaktor:** Fuad Nurullah,
*Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, fəlsəfə üzrə fəlsəfə doktoru*

**Məsləhətçi: Samid Quliyev,**
*Ilahiyyatçı-alim, AJB-in üzvü*

**Redaktor:** Yalçın Yəhya oğlu Heydərli,
*Filoloq*

Aqşin Böyükağa oğlu Əliyev
Lerik tarixi – memarlıq və arxeoloji abidələri.,
Bakı, "Ecoprint", 2023,252 səh.

*Lerik rayonunun abidələrini əhatə edən və bu sahədə işıq üzü görən ilk kitabdır.Oxucuların xahişi ilə əlavələr edilməklə təkrar nəşr olunur.Kitab elmi-inoformativ,fakt və məlumatların zənginliyi,məzmununun mükəmməlliyi baxımından diqqət çəkir. Burada ictimai-siyasi həyatımızın,o cümlədən Lerik rayonunun tarixini,etnoqrafiyasını,arxeoloji və memarlıq abidələrini – mağaraları,yaşayış yerlərini, qalaları,kurqanları,nekropolları, qədim qəbiristanlıqları,məscidləri,hüseyniyyələri,ziyarəthagları, məqbərələri, pirləri, ocaqları,dəyirmanları və bulaqları əks etdirən,Lerik rayonu haqqında ümumi ensiklopedik məlumatlar və abidələrin fotoşəkilləri verilir.Kitab elmi-tədqiqat xarakteri daşıyır və geniş oxucu kütləsi və elmi-tədqiqat işi aparanlar və araşdırmalar üçün nəzərdə tutulmuşdur.*

**ISBN: 978-9952-29-085-1**

# Ön söz

Lerikdə dövlət mühafizəsində olan daşınmaz tarixi mədəniyyət abidələri mövcuddur.Bunlardan yerli əhəmiyyətli memarlıq abidələri 27,arxeloji abidələr 25,monumental və xatirə abidələri 1,dekorativ,tətbiqi sənət abidələri 78, məscid 99 və s. Lerik qəsəbəsində 1 ədəd tarix-diyarşünaslıq muzeyi, "Uzunömürlülər" muzeyi,rəsm qaleriyası fəaliyyət göstərir.Lerikdə tapılmış mağarada daş dövrünün insanlarının yaşaması güman edilir. Rayonda çoxsaylı tarixi abidələr var.Xanəgah kəndindəki Xoca Seyid məqbərəsi (XIV əsr),Lüləkəran kəndindəki məscid (XIX əsr),Mistan kəndində,dəniz səviyyəsindən 2438 metr yüksəklikdə yerləşən "Qızyurdu" adlı qədim insan məskəni,Mondigah kəndindəki Baba İsa türbəsi,Kekonu kəndi yaxınlığındakı Pir Yusif məqbərəsi,Lerikdən Cəngəmiran kəndinə gedən yolun üstündəki Cabir məqbərəsi (XII–XIV əsrlər) və s. Kəndlərin çoxunda daşdan yonulmuş qoç heykəlləri salamat qalmışdır.Cəngəmiran kəndinin yaxınlığında Xəlifə Zəkəriyyə məqbərəsi var.Bu kənddə qədim ağaclar da tarixi abidələr kimi qorunur. Məşhur fransız yazıçısı Aleksandr Dyüma vaxtilə Qafqaza səyahət edərkən Lerik meşələrindən keçərək Hovil kəndində olmuş,öz əsərlərində bu kəndin eskizlərini çəkmiş, gözəlliklərini vəsf etmiş,əhalinin qonaqpərvərliyindən, məşğuliyətindən geniş yazmışdır.Lerik ərazisində mövcud olan Oğlan və Qiz qalaları müdafiə məqsədi ilə tikilmişdir.Bu qalalara su dulus borularla bulaq çeşmələrindən çəkilibmiş.Qalaların bürcləri orjinal arxitektura quruluşuna malikdir.Rəvayətə görə bura qədim albanların məskəni olmuşdur.Səfəvilərin hakimiyyəti illərində Şah İsmayıl öz inanılmış adamlarını Lerik rayonu ərazisinə də göndərmişdir.İndi əhalinin ziyarətgaha çevirdiyi Babagil məqbərəsi də o dövrlərin yadigarıdır.Qədim tarixə malik olan Lerik rayonu ərazisində daş dövrünə aid olan əşyalar

tapılmışdır.Buzeyir mağarası Azərbaycan ərazisində daş dövrünə aid olan ən qədim yaşayış məskənlərindəndir.XVIII–XIX əsrlərdən başlayaraq məşhur fransız arxeoloqu Jak de Morqan, K.Şaffer və qardaşı Henri ilə apardığı arxeoloji qazıntı zamanı buranı "arxeoloji cənnət" adlandırmış, qiymətli tarixi eksponatlar aşkarlamışdır.Morqan Lerikin Veri kəndi ərazisindəki “qızılbaşlar”qəbiristanlığında arxeoloji qazıntılar aparmış, bu diyarın qədim tarixindən söhbət açmışdır.O, mərtəbəli qəbirlərdən tapdığı bütün maddi mədəniyyət nümünələrini özü ilə Fransaya aparmışdır.Həmin eksponatlar indi də Paris muzeylərini bəzəyir.Görkəmli arxeoloq H.Hümmel Lerikdə tapılan maddi-mədəniyyət nümunələrini neolit (yeni daş) dövrünə aid etməklə Azərbaycan paleolit dövrü adamlarının Lerik ərazisində məskunlaşmasını təsdiq edir.Elmlər Akademiyası Tarix İnstitutu Arxeologiya və Etnoqrafiya şöbəsinin müdiri,professor Əsədulla Cəfərov Lerik rayonu ərazisində elmi tədqiqat işləri aparmış, ilk dəfə olaraq Buzeyir mağarasında orta paleolit dövrünə dair qədim insan düşərgəsi aşkar etmişdir.

Azərbaycan mustəqillik qazanandan sonra ədəbiyyat sahəsində də çiçəklənmə dövru başladı.Sovet dövründə üzümuzə bağlanan milli arxivlərimiz acıldı.Zaman indi vətəndaşlıq borcuna yeni gözlə baxdığı kimi olub keçənlərədə ədalət və insaf işığında nəzər salmağı bizdən tələb edir.Məhz belə bir dövrdə kitabın muəllifi olan Aqşin Əliyev bölgədəkil tarixi-etnoqrafik abidələrin elmi təhlilini vermək şərtilə,sənədlər əsasında oxucuya təqdim etmişdir.Hər kəs bilməlidir ki, vətən borcu müqəddəs bir borcdur.Dünyadan ən böyük eşq vətən eşqidir.Aqşin Əliyev çırpınır və o gözəl tarixçi və tədqiqatçıdır.O, yurdumuzu gəzərək qədim abidələri tədqiqi edir.Belə ki,Aqşin Əliyev“Bobogil qəbir daşları”, “Sığon qəbirstanlığı”, “Lənkəran qalasının alınması”, “Lənkərgünan, Lənkəran yoxsa Lankon”, “Babər qalası”, “Şağlakücə İmamzadə türbəsi”, “Şağlakücə Seyidəpir ocağı”,

“Haftoni kurqanları”, “Cəngəmiran daş-qutu qəbirləri”, “Orand daş-qutu qəbirləri”, “Osakücə Mir Şərif ağa ocağı”, ”Kurqanlar danışır” adlı elmi publisistik məqalələri və “öz doğma kəndinə həsr etdiyi “Ləj Kəndinin Tarixi”, “Haftoni“ və Cənub bölgəsinin abidələr ensiklopediyası(2 nəşrdə) adlı kitabın müəllifidir.O, zaman-zaman çoxlu elmi-publisitik məqalələr və yazaraq cənub bölgəsinin qədim abidələrini araşdırıb üzə çıxarmışdır.Qeyd etmək istəyirəm ki,bu böyük missiyanı öz üzərinə götürdüyünə görə Aqşin Əliyevə işlərində uğurlar arzulayırıq.

**Yalçın Yəhya oğlu Heydərli: Filoloq**

**Aqşin Böyükağa oğlu Əliyevin**

**“Lerik tarixi memarlıq və arxeoloji abidələri” adlı kitabı haqqında**
**RƏY**

Qloballaşama proseslərinin böyük vüsət aldığı bir dövrdə, Azərbaycanın digər bölgələri kimi Lerikin də maddi və mənəvi irsinin öyrənilməsi vacib məsələyə çevrilmişdir.Bu baxımdan Aqşin Böyükağa oğlu Əliyevin qələmə aldığı “Lerik tarix-memarlıq və arxeoloji abidələri” adlı kitabı diqqətə layiqdir.

Kitab ön söz, üç fəsil və ədəbiyyat siyahısından ibarətdir.

I Fəsildə - Lerikin coğrafi mövqeyi, relyefi, təbiəti,inzibati bölgüsü, etnik tərkibi və maddi-mədəni irsi haqqında dolğun məlumat verilmişdir.

II Fəsildə - Lerik ərazisində yerləşən tarixi abidələrin sxemi verilmişdir.Bu sxem bölgənin tarixi abidələrinin öyrənilməsinə ciddi mənada öz tövhəsini verməkdədir.Bundan əlavə bu fəsildə Azərbaycan tarixinin kompleks şəkildə öyrənilməsində müstəsna əhəmiyyətə malik olan Buzeyir və Zuvand mağaraları haqqında ətraflı məlumat verilir.Buzeyir mağarası haqqında məlumat verilərkən bu mağaranın tədqiq edilməsində və öyrənilməsində xüsusi xidmətləri olan Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya,Etnoqrafiya və Antropologiya İnstitutunda Daş dövrü arxeologiyası şöbəsinin müdiri professor Əsədulla Cəfərovun tədqiqat əsərlərinə müraciət edilməsi tədqirə layiqdir. Bundan əlavə bu fəsildə Lerik ərazisində yerləşən qalalar, nekropollar və türbələr haqqında da sistemli tarixi məlumatlar verilmişdir.

Kitabın III Fəsilin də isə tarixi Lerik ərazisində yerləşən 99 məscid haqqında müfəssəl məlumatlar verilmişdir.Bu fəsildə heykəllər,fiqurlar və körpülər haqqında da məlumatlar vardır.

Kitabın ədəbiyyat siyahısı mövzuya uyğun tərtib edilmişdir.

Kitabın elmi dəyərini artıran əsas cəhətlərdən biri də illustrativ materialların bolluğudur.Belə ki,kitabda demək olar ki, bütün fəsillərin və yarımfəsillərin məzmununa uyğun aid çox nadir və maraqlı illustrativ materilallar toplanmışdır.Həmin materilalların da çoxu ilk dəfə elmi araşdırmaya cəlb olunmaqla böyük elmi dəyərə malikdir.

**Şöhrət Mirzə oğlu İbadov: Tarix üzrə fəlsəfə doktoru**

**Allahın adı ilə**
**Aqşin Böyükağa oğlu Əliyevin**
**"Lerikin tarixi-memarlıq və arxeoloji abidələri" adlı kitabı haqqında**

## RƏY

Lerik rayonunun zəngin və füsunkar təbiəti olduğu kimi, qədim tarixi də vardır.Belə ki,Lerikdə tapılan və Daş dövrü insanlarının yaşaması güman edilən mağara,habelə çoxsaylı tarixi-dini abidə mövcuddur.Onlardan Xanəgah kəndindəki "Xoca Seyid" məqbərəsini(XIV əsr),Lüləkəran kəndindəki məscidi (XIX əsr), Mistan kəndində dəniz səviyyəsindən 2438 metr yüksəklikdə yerləşən "Qızyurdu" adlı qədim insan məskənini,Mondigah kəndindəki "Baba İsa" türbəsini,Kekonu kəndinin yaxınlığındakı "Pir Yusif" məqbərəsini,Lerikdən Cəngəmiran kəndinə gedən yolun üstündəki "Cabir" məqbərəsini(XII–XIV əsrlər),eləcə də digər məqbərə və tarixi abidələri misal göstərmək olar.
Bunlardan əlavə,rayonun Cəngəmiran kəndinin yaxınlığında "Xəlifə Zəkəriyyə" məqbərəsi də vardır.
Təəssüf ki, Lerikin tarixi kimi,tarixi-dini abidələri də bu günə qədər akademik səviyyədə araşdırılmamış,lazımi formada tədqiqata cəlb olunmamışdır.Aqşin Əliyev isə qələmə aldığı "Lerikin tarixi-memarlıq və arxeoloji abidələri" adlı kitabda Lerik rayonunun məscid,qəbiristanlıq,türbə və ziyarətgahları haqqında zəngin mənbə və məxəzlərdən istifadə edərək önəmli elmi məlumatlar vermişdir.Buna görə də, müəllifin sözügedən sahə üzrə atdığı addım təqdirəlayiqdir.İnanıram ki, tədqiqatçılar Lerikin zəngin tarixini,o cümlədən tarixi-dini abidələrini tədqiqata cəlb edərkən bu kitabdan etibarlı mənbə kimi istifadə edəcəklər.
A.Əliyevə elmi fəaliyyətində və gələcək işlərində Uca Allahdan uğurlar arzulayıram.

***QMİ sədrinin müavini,***
***fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullah***

# II FƏSİL LERİK TARİXİ – MEMARLIQ VƏ ARXEOLOJİ ABİDƏLƏRİ






Lerik rayonu — Azərbaycan Respublikasında inzibati–ərazi vahidi.İnzibati mərkəzi Lerik şəhəridir.Lerik rayonu1930-cu il avqustun 8-də təşkil olun-muşdur.1938-ci ilədək Zuvand rayonu adlandırılmışdır. Lerikdə yaşayış məntəqələrinin sayı 161-dir.29 ərazi-inzibati vahidi,1 qəsəbəsi, 161 kəndi var.

**Tarixi**.Lerik rayonunun ərazisi ən qədim yaşayış məskənlərindən biridir.Qədim amanlardanibtidai insanlar dağların ətəklərində indi də mövcud olan təbii mağaralardan ya-şayış məskəni kimi istifadə etmişlər.Buranın təbii mağaralarından bəzilərinin hətta tunc dövründən də əvvəllərə aid olması ehtimal olunur.Görkəmli arxeoloq Hümmel bu mağaraları neolit (yeni daş dövrü) dövrünə aid edir. Buranın dağlarında eramızdan əvvəl III-II minilliklərə aid maddi-mədəniyyət abidələri mövcuddur. 1930-cu ildə Zuvand rayonu adı ilə təşkil olunmuşdur.Status: Rayon Lənkəran iqtisadi rayonu tərkibinə daxildir.Lerikin 157 kənd,şəhər əhasi: 7. 301 nəfər (2009), rayon əhalisi: 80 835 (2015) , sahəsi: 1 083. 6 km², telefon kodu: 994 25,koordinatlar:38°46′31″N 48°24′55″E, Saat qurşağı: UTC+04:00

**1.Coğrafi mövqeyi.Relyefi**.Lerik rayonunun ərazisi Talış silsilə dağlarının əhatəsindədir. Cənub və cənub-qərbdə Yardımlı, şimal-şərqdə Lənkəran, şimal-qərbdə Masallı,cənub-şərqdə Astara rayonları ilə həmsərhəddir.İran İslam Respublikası ilə sərhəd boyu Talış dağ silsilələri, bundan şimalda Peştəsər və Bürovar *(Bax:t Talışca "Bırə" "vırə" –tikan yeri)* dağ silsilələri uzanır. Talış və Peştəşər silsilələri arasında Zuvand(Diabar) çökəkliyi yerləşir.Ən yüksək zirvələri Talış silsiləsindəki Gömürgöy (2493 m) və Qızyurdudur(2433 m).Əsasən pallogenin vulkanogen-çökmə süxurlarından təşkil olunmuşdur.

**İqlimi**. Payız fəslində Lerikdə tez-tez yağış yağır, kənd yollarında gediş-gəliş çətinləşir.Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqlimi, həmçinin yayı quraq keçən mülayim isti iqlim üstündədir. Orta temperatur yanvarda 1-dən -4 dərəcə S qədər, iyulda 22 - 12 S-dir.İllik yağıntı 300 mm-dən 800 mm-ə qədərdir.

**Təbiəti.** Lerikin bitki örtüyü əsasən kollu və seyrək meşəli çəmənlərdən və dağ meşələrindən ibarətdir.Meşələrdə palıd, vələs, fıstıq, qoz, dəmirağacı, azalt (nil) çoxluq təşkil edir.Meşələrdə və Lerik çayının sahillərində tülkü,çaqqal,canavar,ayı, qaban,ördək,dovşan,meşə pişiyi,süleysin,kəklik,torağayı, bildirçin və s. heyvanlara, meşələrin əlçatmaz yerlərində, dağlarda bəbirə rast gəlmək olar.Rayonun Zuvand ərazisində Zuvand dövlət yasaqlığı(qoruq) vardır.Burada fəaliyyət göstərən Milli Elmlər Akademiyasının "Nəbatət elmi-tədqiqat mərkəzi" ərazinin fauna və florasını öyrənir.Ərazidə 40,3 min hektar meşə örtüyü vardır. Lənkəran-Lerik 56 km-lik avtomobil yolu boyu bir sıra turizm, istirahət əyləncə mərkəzləri inşa edilmişdir. "Relax", "Təbəssüm","Meşəbəyi","Ağgöl","Paradis" və digər turizm obyektləri bu cür mərkəzlərdəndir. Burada kotec, istirahət evləri, əyləncə mərkəzləri, restoran və barlar,idman qurğuları qonaqların

xidmətindədir.Turizm obyektlərində,600 nəfərdən çox,o cümlədən"Relax" turizm istirahət əyləncə mərkəzində eyni vaxtda 600 nəfərdən çox qonağın qəbulu üçün şərait yaradılmışdır.

**İnzibai bölgüsü.**Lerik rayonu 8 avqust 1930-cu ildə təşkil olunmuşdur.19 iyul 1938-ci ilə qədər Züvand rayonu adlanmışdır. Lerik şəhər tipli qəsəbə kimi 23 iyun 1962-ci ildə təşkil edilmişdir. Rayonun ərazisi 1084 kv.km.-dir.Bakıdan rayon ə mərkəznədək köhnə yolla 346 km,(2007),təzə “ipək yolu” ilə isə 276 km-dir(2019).Lerik şəhər tipli qəsəbəsindən yaxın dəmir yol Lənkran Stansiyasınadək məsafə 50 km.-dir.

**İnzibati vahidlərinin sayı:** Lerik ərazisində 1 Qəsəbə,20 ərazi İcra Nümayəndəliyi 158 yaşayış məntəqəsi vardır.İri yaşayış məntəqələri.Lerikdə yaşayış məntəqələrinin sayı 161-dir.29 ərazi-inzibati vahidi,1 qəsəbəsi, 161 kəndi var.

**Əhalisi.** Lerik həmişə uzunömürlülər diyarı kimi məşhur olmuş və rayonun sakini olmuş Şirəli Müslümov uzunömürlülük üzrə dünya rekordu müəyyən etmişdir.O,163 il(1812-1975) ömür sürmüşdür. Onun digər həmyerlisi Məcid Ağayev 138 il (1835-1973) və Mahmud Eyvazov isə 150 il (1808-1958) yaşamışdır. Hazırda bu rayonda yaşı 100-ü keçmiş,lakin hələ də əmək qabiliyyətini saxlamış onlarca insan yaşayır. Səyyah, etnoqraf-tarixçi Berezin qeyd edir ki,"buranın yerli əhalisi çox qədim xalqdır. Onlar keçmiş midiyalılardır".

**Etnik tərkib**.

**Lerik şəhəri əhalisinin milli tərkibi**

| Etnik qrup | Sayı, 1939 sa.[2] | Nisbəti, 1939 sa.[2] |
|---|---|---|
| toplam | 1 449 | 100 % |
| talış | 996 | 68.7 % |
| azərbaycanlı | 303 | 20.9 % |
| rus | 107 | 7.4 % |
| erməni | 11 | 0.8 % |
| digər | 32 | 2.2 % |

*Mənbə:(Bax: "Кавказский календарь на 1915 год".Издан по распоряжению Наместника его Императорскаго Величиства на Кавказе, под редакцией А. А. Эльзенгера и Н. П. Стельмащука,Тифлис.Типография Канцелярии Наместника Е. И. В. на Кавказе, казённый дом. 1914. /Оглавление: Глава — Отдел статистический: Список населенных мест Кавказа, стр. 152(Bax:Ethno-Caucasus, Этнодемография Кавказа: Лерикский район (1939 г. )*

**2.Maddi-mədəniirsi.**Lerikdə dövlət mühafizəsində olan daşınmaz tarixi mədəniyyət abidələri mövcuddur.Bunlardan *yerli əhəmiyyətli memarlıq abidələri,27,arxeoloji abidələr 25, monumental və xatirə abidələri 1,dekorativ, tətbiqisənətabidələri 78 və s. dir.Lerik şəhərində 1 ədəd tarix-diyarşünaslıq muzeyi, "Uzunömürlülər" muzeyi,rəsm qaleriyası fəaliyyət göstərir.* Lerikdə tapılmış mağarada daş dövrünün insanlarının yaşaması güman edilir.Rayonda çoxsaylı tarixi abidələrvar.Xanəgah kəndindəki Xoca Seyid məqbərəsi(XIV əsr),Lüləkəran kəndindəki məscid(XIX əsr),Mistan kəndində,dəniz səviyyəsindən 2438 metr yüksəklikdə yerləşən"Qızyurdu" adlı qədim insan məskəni, Mondigah kəndindəki Baba İsa türbəsi, Kekoni kəndinin yaxınlığındakı Pir Yusif məqbərəsi,Lerikdən Cəngəmiran kəndinə gedən yolun üstündəki Cabir məqbərəsi(XII–XIV əsrlər) və s. Kəndlərin çoxunda daşdan yonulmuş qoç heykəlləri salamat qalmışdır.Cəngəmiran kəndinin yaxınlığında Xəlifə Zəkəriyyə məqbərəsivar. Bu kənddə qədim ağaclarda tarixi abidələr kimi

qorunur.Məşhur fransız yazıçısı Aleksandr Düma vaxtilə Qafqaza səyahət edərkən Lerik meşələrindən keçərək Hovil kəndində olmuş, öz əsərlərində bu kəndin eskizlərini çəkmiş,gözəlliklərini vəsf etmiş, əhalinin qonaq pərvərliyindən, məşğuliyətindən geniş yazmışdır.Lerik ərazisində mövcud olan Oğlan və Qiz qalaları müdafiə məqsədiilə tikilmişdir.Bu qalalara su dulus borularla bulaq çeşmələrindən çəkilibmiş.Qalaların bürcləri orjinal arxitekturaq uruluşuna malikdir.Rəvayətə görə bura qədim albanları nməskəni olmuşdur.Burada albanlara məxsus qəbirstanlıq indidə mövcuddur.Səfəvilərin hakimiyyəti illərində Şah İsmayıl öz inanılmış adamlarını Lerik rayonu ərazisinə də göndərmişdir.İndi əhalinin ziyarətgaha çevirdiyi Babagil məqbərəsidə o dövrlərin yadigarıdır.Qədim tarixə malik olan Lerik rayonu ərazisində daş dövrünə aid olan əşyalar tapılmışdır. Buzeyi rmağarası Azərbaycan ərazisində daş dövrünə aid olan ən qədim yaşayış məskənlərindəndir.XVIII-XIX əsrlərdən başlayaraq məşhur fransız arxeoloqu Jak de Morqan,K. Şaffervə qardaşı Henriilə apardığı arxeoloji qazıntı zamanı buranı "arxeoloji cənnət" adlandırmış,qiymətli tarixi eksponatlar aşkarlamışdır. Morqan Lerikin Veri kəndi ərazisindəki Qızılbaşlar qəbiristanlığın da arxeoloji qazıntılar aparmış, bu diyarın qədim tarixin dən söhbət açmışdır. O, mərtəbəli qəbirlərdən tapdığı bütün maddi mədəniyyət nümünələrini özü ilə Fransaya aparmışdır.Həmin eksponatlar indidə Parismuzeylərini bəzəyir. Görkəmli arxeoloq H.Hümmel Lerikdə tapılan maddi-mədəniyyət nümunələrini neolit(yenidaş) dövrünə aidetməklə Azərbaycan paleolit dövrü adamlarının Lerik ərazisində məskunlaşmasını təsdiq edir. Elmlər Akademiyası Tarix İnstitutu Arxeologiyavə Etnoqrafiya şöbəsinin müdiri, professor Əsədulla Cəfərov Lerik rayonu ərazisində elmi tədqiqat işləri aparmış,ilk dəfə olaraq Buzeyir mağarasında orta paleolit dövrünə dair qədim insan düşərgəsi aşkar etmişdir.Talış dağlarında yerləşən bu rayon

füsünkar təbiəti ilə, zəngin maddi-mədəniyyət abidələri ilə diqqətə layiqdir.Məhz rayonun cənub-şərq bölgəsində, turizm potensialını zənginlik baxımından maraqlı edən faktorlardan biri də Talış dağlarının ən yüksək zirvələri olan Kömürgöy(2493 m) və Qızyurdu(2433) dağlarının rayon ərazisində yerləşməsidir.Zəngin və ecazkar təbiəti ilə maraq doğuran rayon eyni zamanda tarixi-mədəni abidələri baxımından da zəngin tarixi olan bir diyardır. Lerik rayonun arxeoloji abidələri öyrənilməsinə XIX əsrin 90-ci illərində başlanmış və ilk tədqiqatlar Fransanın Sen-Jerman muzeyin əməkdaşı Jak de Morqanın adı ilə bağlı olmuşdur.1890-ci ildə Jak de Morqan Lerik rayonunun cənubunda yerləşən kəndlərdə ilk arxeoloji təqiqat işləri aparmışdır.O, Lerik rayonu ərazisində bir çox abidələri tədqiq etmiş, əldə etdiyi maddi-mədəniyyət nümünələrin ən nəfislərini Sen-Jerman muzeyinə göndərmişdir.Jak de Morqan rayonun dağlıq ərazisində 220-yə qədər müxtəlif qəbir abidələri açaraq,son tunc və ilk dəmir dövrunə aid zəngin maddi-mədəniyyət nümünələri əldə etmişdir. Lerikin tarixi abidələrin tədqiqi ilə Fransa,Rusiya Almaniyanın arxeoloq alimləri ilə yanaşı Azərbaycan arxeoloqları məşğul olmuşdur.Lerik rayonun ərazisində aparılmış arxeoloji tədqiqatlar nəticəsində daş dövrunə, son-tunc erkən dəmir dövrunə, antik və orta əsrlər dövrunə aid xeyli abidə qeydə alınmış onların bəzilərində qazıntılar aparılmış və bölgənin turizm potensianlını ehtiva olunduğu tarix və mədəniyyətə işıq salan qiymətli maddi mədəni irs toplanılmışdır.Lerik rayonunun maddi-mədəniyyət abidələri aşağıdakı xronoloji mərhələ üzrə təsnif etmək olar

*1.Daş dövrua bidələri;*
*2.SonTuncvə Erkən Dəmirdövru abidələri;*
*3.Antik dövrabidələri;*
*4.Orta əsr abidələri;*

Lerik rayonun təbii-coğrafi şəraiti, burada ibtidai insanların məskunlaşması üçün əlverişli mağaraların mövcudluğu ərazidə

paleolit abidələrinin varlığı ehtimalını artırmışdır. XX əsrin 80-ci illərin ortalarına qədər rayon ərazisində daş dövru abidələrin olması elmə məlum deyildir.Bölgə qədim daş dövrü abidələrinin axtarışı məqsədi ilə Azərbaycan Elmlər Akademiyası Paleolit arxeoloji ekspedisiyası 1985-ci ilin iyul-avqust aylarında Lənkəran,Astara,Lerik və Masallı rayonları ərazisində arxeoloji kəşfiyyat işləri aparmışdır.Qeyd olunan rayonların ərazsisi diqqətlə müşahidə olunmuş, ümidverici elmi nəticə Lerik rayonu ərazisində əldə edilmişdir.Büzeyir mağarası bölgənin ibtidai insanların yaşaması üçün coğrafi baxımından əlverişli olduğunu söyləməyə əsas vermişdir.Mağara Talış dağların yüksək silsilə qatındadır. Büzeyir mağarası Lerik-Büzeyir yolunun 10-cu km-də Zuvand çayının sol sahilində Büzeyir kəndindən 3 km şərqdə, dəniz səviyyəsində 1640 m hündürlükdə olan Dəlikdaş zirvəsində yerləşir. Büzeyir mağarasının uzunluğu 17 m, eni 9-14 m mağara dəliyinin hündürlüyü 10 m, torpaq çöküntüsunun qalınlığı 2-2,5 m-dir.Lerik rayonun qədim dövr abidələri içərisində son tunc və erkən dəmir dövr abidədələri xüsusi yer tutur.Lerik rayonu ərazisində son tunc və ilk dəmir dövrunə aid yarım köçəri maldarlıq təsərrüfatı əlamətləri özundə əks etdirən çoxlu abidələr qeydə alınmış və tədqiq edilmişdir. Bu dövrun abidələri əsasən qəbir abidələri olduğu üçün onlar 3 tipə ayırmaq olar:

*1. Daş qutu qəbirstanlıqları;*
*2. Kurqanlar;*
*3. Dolmenlər.*

Daş qutu qəbirstanlıqlar Keraveladi, Veri, Tülu,Coni,Hamarat, Hovil,Orand, Rvarud və s. qəbirıstanlıqlarda rast gəlinir.Vüzuial müşahidələrə əsasən Lerik rayonu ərazisində Kurqanların yüksək dağlıq ərazilərində və dağ zirvələrində salındığı qeyd etmək olar. Beləki rayonda Çayrud,Rvarud, Nürəvüd, Pirəküjə,Andurmə, Mistan və sair kurqanlar mövcuddur.Lerik rayon ərazisində dolmenlərin olması haqqında ilk məlumat Fransız arxeoloqu Jak

de Morqan vermişdir.O,Kera-Veladi,Çodigəş,Coni,Tülü,Rəzgov və s. kəndlərdə dolmenlərin olmasını qeyd etmişdir.Lerik rayonun antik dövr abidələrin tədqiqi ilə əsasən Q.Qoşqarlı məşğul olmuşdur.Antik dövr abidələrinə Şağolakan,Boykəndil,Kürdəsər, Mistan və s göstərmək olar.Rayonun antik dövr abidələri 2 qrupa bölunur;

*1. Yaşayış yerləri*
*2. Qəbir abidələri.*

Yaşayış yerlərinə Şağolankan,Cındırtəpə,Zövnə,Köhnə Orand və s misal çəkmək olar.Qəbir abidələri rayon ərazi-sində əsasən antik dövrə aid daş qutu və kup qəbirlərindən ibarət nekropol üzə çıxarılmışdır.Lerikin orta əsr arxeoloji abidələrini aşağıdakı şəkildə qruplaşdırmaq olar;

*1. Qalalar;*
*2. Kənd tipli yaşayış yerləri;*
*3. Dini-tarixi abidələr;*
*4. Daş qoç heykəlləri.*

Rayonda ərazisində qeydə alınan arxeoloji abidələrinin müəyyən qismini kənd tipli yaşayış yerləri təşkiledir.Arxeoloji cəhətdən Lerikin orta əsr kənd tipli yaşayış yerləri tədqiq olunmayıb. Burada Lildiqo,Kanə di(Köhnə kənd),Kamilikəco və s misal çəkmək olar.Lerikin memarlıq abidələri içərisində dini-tarixi abidələri mühüm yer tutur.Bunun başlıca səbəbi isə orta əsrlər bu bölgədə islam dinin güclü təsir qüvvəsinə malik olması idi. Bunlara Hüseyn Ata,Babagil,Yaşıl Baba,Xoca Seyid türbəsi, Seyid Əbulqasim, Seyid Paşa və s. aid etmək olar.Rayonun Rvaurd kəndində qədimlərdən gələn rəvayətlərə görə bu ərazidə Hz.Yaqub Peyğəmbərin (s) pirinin yerləşdiyini qeyd edirlər. Pir ziyarətgaha çevrilmişdir.Pirin yeri məlumdur.Lerik rayonun dini-tarixi abidələrində və orta əsr qəbirstanlıqlarında çoxlu sayda daş qoç heykəlləri qeydə alınmışdır.Rayonun Cəngəmiran,Barzavu, Mondigah,Rvarud,Çayrud, Coni Veri və s. kəndlərin ərazsindəki

orta əsr qəbirstanlıqlarında 100-dən çox daş qoç heykəli qeydə alınsada, hazırda onlara çox az rast gəlinir. Bütövlükdə rayonun arxeoloji abidələrinin tədqiqi rayonun və eləcədə respublikamızın tarixi ilə bağlı problem məsələləri aydınlaşdırmaqda mühüm elmi əhəmiyyətə malikdir.Bununla yanaşı bu rayonun tarixi-mədəni abidələr aspektində tədqiqi rayonun nə qədər zəngin turizm potensialına malik olmasını bir daha sübut edir.Rayonun tarixində önəmli yer tutan abidələr sırasında xüsusi ilə Rvarud kəndində yerləşən Seyid Əbulqasim,Seyid Paşa,Mir Cahangir ağa, Seyid Vəliağa türbələrinə turların təşkil olunması dini turizm marşrutun miqyasının genişləndirilməsi yönümündən məqsədəuyğun hesab etmək olar.Lerikin Pirasora kəndində yerləşən Piramidalar son zamanlar bir sıra tədqiqatçıların marağına səbəb olmuşdur və əraziyə turist axına şərait yaratmışdır.Beləliklə, rayonun tarixi-mədəni abidələrində yaşanan tarix,rayonun əzəmətli keçmişindən xəbər verir.Tarixi zəngin olan rayon üçün bu cür abidələrin tarixin sınağından gəlib çatmas, gələcəkdə rayonda turizmin bura üçün xarakterik növlərin inkişaf etməsi üçün əlverişli şərait yaradır.*(Bax:Kulturoloq Camal Rzayev.dosye. org. saytı).*Lerik rayonu öz abidələrinin qədimliyinə görə dünya özünəməxsus yerlərdən birini tutur.Belə ki, Lerik kəndlərinin demək olar ki, hər birində qədim yaşayış məskəni, qədim qəbiristanlıq, qədim türbə və ocaqlar var.Bütün bu arxeoloji və memarlıq abidəlri bu ərazilərdə qədim bir tarixin və mədəniyyətin yatdığını sübut edir. Belə ki,Leriki 9 böyük kəndi bu qədim mədəniyyətin beşiyi olmuşlar və bunlar Mistan,Orand,Rəzgöv,Çəngəmiran,Coni, Tülü, Soru və Çayrud kəndləridir.

**Görkəmli şəxsiyyətləriləri.**Ucqar dağ rayonu olan Lerik Azərbaycana bir çox görkəmli şəxslər bəxş edib.Bu gün respublikanın ayrı-ayrı ali məktəblərində,MDB ölkələrinin ali

məktəblərində tanınmış elm adamları, hüquq mühafizə orqanları işçiləri fəaliyyət göstərir.

*1. Bala Məmməd Mistanlı – Tanınmış inqilabçı-polkovnik, Lənkəran qəzasının hərbi qərərgah rəisi, xalq qəhrəmanı.*
*2. Böyükağa Mirsalayev - Zaqafqaziya KP (b) MK-nın II katibi.*
*3. Mirzə Məmmədov - Azərbaycan KP (b) Mk-nın III katibi, Azərbaycanın Xalq Maarif Komissarı, Azərbaycan SSR Maarif naziri.*
*4. Akif Dənziyev - Araşdırmaçı -yazar*
*5. Miri Qənbərov - Azərkontrakt SC-nin sədri.*
*6. Xeyrulla Məmmədov - Filologiya elmləri doktoru, professor.*
*7. Vaqif Musayev (siyasətçi) - İqtisad elmləri doktoru.*
*8. Bəhlul Abdulla - Filologiya elmləri doktoru, professor.*
*9. Elman Quliyev - Filologiya elmləri doktoru, professor.*
*10. Novruz Novruzov - Yazıçı-publisist, Şabran rayon İH başçısı.*
*11. Mirağa Cəfərquliyev - Hüquq elmləri doktoru.*
*12. Əlihüseyn Hidayətov - Tibb elmləri doktoru, Əməkdar elm xadimi.*
*13. Asəf İsgəndərov - Fizika-riyaziyyat elmləri doktoru, professor, Lənkəran DU-nun rektoru.*
*14. Məmmədhüseyn Əliyev - Yazıçı-dramaturq.*
*15. Əlisa Nicat - Yazıçı-dramaturq, filosof.*
*16. Xanoğlan Bayramov - Neftçi, Sosialist Əməyi Qəhrəmanı*
*17. Elman İsgəndərov - Texnika üzrə fəlsəfə doktoru.*
*18. Yaşar Kəlbiyev - İqtisad elmləri doktoru, professor, Azərbaycan İqtisadiyyat Universitetində kafedra müdiri.*
*19. Eldar İsgəndərzadə - Şair-dramaturq, ssenarist.*
*20. İqbal Məmmədov - İqtisadiyyat üzrə fəlsəfə doktoru,*
*21. Valeh Müslümov - Azərbaycanın Milli Qəhrəmanı.*
*22. Rövşən Abdullayev - Azərbaycanın Milli Qəhrəmanı.*
*23. Fəhad Ağayev- Azərbaycanın Milli Qəhrəmanı.*

*24. İslam Qəribli - Filologiya elmləri doktoru.*
*25. Qədiməli Əhməd - Şair.*
*25. Xalid Mahmud - Şair.*
*26. Allahverdi Məmmədli - Şair.*
*27. Gülməmməd Məmmədzadə - Tədqiqatçı-jurnalist.*
*28. Fazil Ağayev- Tibb elmləri doktoru, professor, əməkdar elm xadimi*
*29. Kərim Kərimov-Pedaqoji elmlər doktoru, professor.*
*30. İlkin Əzizli – Filoloq, Lerik-Lik ictimai-ədəbi məslisinin rəhbəri.*
*31. Rəhimov Mubariz Fədail oğlu – İlahiyyatçı*
*32. Şöhrət Mirzə oğlu İbadov - Tarix üzrə fəlsəfə doktoru*

## 3.Dörd müqəddəs məkan

**1.Mistan.** Lerik rayonunun ən qədim kəndlərindən biri də, Mistan kəndidir və Mistan,yer,məntəqə, çay və kənd adlarıdır.Mistan adlı hər hansı bir məntəqə adılna qonşu İran,Türkiyə,İraq və Suriya dövlətləri ərazisində də rast gəlmək olar.Bütün bu məntəqələrdə yaşayan əhali eyni antropoloji tipin daşıyıçıları olmaqla bərabər eyni adət-ənənələri paylaşırlar.Belə ki, zahiri görünüşcə, müəyyən olunmuş ölkələrin ərazisində yerləşən Mistan adlı məntəqələrin əhalisi biri-birinin əvəzsiz təkrarıdır ki, bu da, onların eyni kökdən və gendən gəlmələrinə dəlalət edir. Məsələ bununla bitimir, çünki dünyanın hər yerində mövcud olan Mistan adlı məntəqələrinin əsas məşğuliyyətləri içərisində sənətkarlıq, heykəltəraşlıq,dəmirçilik,misçilik,zərgərlik və musiqi xüsusi yer tutur.Bəs yer üzündə Mistan adlı məntəqələr harada yerləşir.Belə ki, yer üzündə mövcud olan Mistan adlı məntəqələr aşağıdakılardır.

*1.Azərbaycan respublikasının Lerik rayonundakı Mistan kəndi.*
*2.Azərbaycan respublikasının Qubadlı rayonundakı Mistan kəndi.*
*3.Türkiyə respublikasının Bingöl vilayətinin Genç ilçəsindəki Mistan kəndi.*
*4.İran İslam Respublikasının Mazandaran vilayətindəki Mistan kəndi.*
*5.İran İslam Respublikasının Hörmüzqan vilayətindəki Mistan kəndi.*
*6.İran İslam Respublikasının Zəncan ostanındakı Mistan kəndi.*
*7.Əfqanıstan respublikasının Feyzabad əyalətindəki Mistan kəndi.*
*8.Türkiyə respublikasının Zonquldak ilinin Mistan-ağa kəndi.*

Bunlardanm əlavə bir neçə avropa ölkəsində də Mistan adlı kiçik məntəqələr var, lakin bu məntəqələrin sözügedən Mistanla heç bir bağlılıqları yoxdur.

**1/1.Azərbaycanın Lerik rayonunun Mistan kəndi** – Mistan kəndi Lerik rayonunun inzibati ərazi vahidliyinə daxildir. *(Bax:Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsü Məlumat toplusu. Bakı-2013).*Mistan kəndi Talış dağlarında yerləşir.Kəndin koordinatları 30 dərəcə 38`46``N 48 dərəcə 25`55``E / 38. 64611 dərəcə N 48. 43194 dərəcə E-dir. Kəndin hündürlüyü 1.831 metrdir və saat qurşağı isə UTC+04:00 – dır.Mistan kəndinin əhalisi isə 185 nəfərdir. Mistan kəndinin əhalisi Talış dilində danışır və talışlardan ibarətdir.*(Bax:Azərbaycan Respublikasının əhalisinin siyahıyaalınması 2009-cu il.I cild.Bakı–2010).*Lerik rayonundakı Mistan kəndinin oykoniminin mənasına aid bir neçə fikir mövcuddur.Birinci fikrə görə Mistan şəxs adı olmuşdur.Digər tədqiqatçılar bildirirlər ki, Mistan Talışca “Miston” adlanır və Talış dilindəki Mist- is, - on - cəmlik bildirən şəkilçidir.Lakin fikrimcə digər məntəqələrin də adla-rının eyniliyini və mənalarını nəzərə alsaq Mistan şəxs adı ola bilməz. Çünki, Mistan

yer adı iki “Mist” və “On” hecalarından ibarətdir. Buradan da, belə nəticə çıxır ki, Mistan adındakı “Mist” sözünün mənası bilinmir və “on” isə İran dillərində olan “an” cəm şəkilçisinin Talışca olan olan formasıdır ki, bunu da, mənası Azərbaycan dilində “lar”, ”lər” cəm şəkilçisidir.Onda “Mist” söz kökünü nəzərə almasaq,Mistan adının mənası “Mistlər” kimi tərcümə olunur. Çünki, bu söz metal olan “Mis”lə bağlı olsa idi o zaman bu ad Mistan yox, "Misan” olardı. Bundan əlavə Farsca olan “İstan” sözü “dayanacaq” və ya “dayaq məntəqəsi” kimi tərcümə olunur və bu sözün indiki mənası olan “Mistan” -“dayanıram”, "Mistan”-dayanırlar və “Mistən (d)”- dayanırlar kimi tərcümə olunurlar.Bütün bunları nəzərə alsaq onda Mistan sözünü “dayanacaq” və ya “dayaq məntəqə”si kimi mənalandıra bilərik. Qeyd etməliyəm ki Lerikin Mistan kəndində İmam Musey-i Kazım məscidi dini icması fəaliyyət göstərir.(Bax. Müsəlman Dini İcmalar – 2016-cı ildə qeydiyyatda keçənlər. scwra. gov. az) Lerik rayonundakı Mistan kəndinin əhalisi qədimdə 6 qəbilədən ibarət olmuşdur və bunlar aşağıdakılardır.

*1. Misçiyon (misgərlər).*
*2. Ğələyçiyon (qalayçılar)*
*3. Amburon-Osonəğəçiyon (dəmirçilər).*
*4. Çukəşon (ağackeşlər).*
*5. Zərgəron (Zərgərlər).*
*6. Nunçiyon (çörəkçilər).*

Bu qəbilələrin nümayəndələri müxtəlif dövürlərdə müxtəlif ərazilərə səpələnmişlər.

**1/1/1.Misçilər qəbiləsi -** İranın Zəncan şəhərinə köçüb getmiş və bir daha onlardan soraq alınmamışdır. Lakin SSRİ qurulduqdan sonra onların bir qismi Bakı şəhərinə köçmüş və onların törəmələri olan Məmmədov familiyasının üzüvləri hal-hazırda Bakı şəhərində yaşayırlar. Belə ki, vaxtı ilə İrandan Bakıya

köçmüş Məmməd tayfasının nümayəndəsi olan Professor Nadir Məmmədli Bakı Şəhərində yerləşən “Elm və Təhsil" nəşriyyatının direktorudur. O, eyni zamanda tanınmış dünya şöhrətli filoloqdur.

**1/1/2.Osonəğəçiyon**(dəmirçilər)**qəbiləsi.-** Müəyyən tarixi dövürdə indiki Mistan kəndinin əks tərəfində, qonşu İran ərazisində yerləşən Amburan(məhəllə) ərazisinə köçmüş və orada məsgən salmışdır.Hal-hazırda o ərazidə Amburan (dəmirçilər. Bax ambur talışca dəmir deməkdir və oson sözününə sinonimidir) kəndi var. İndinin özündə belə İranın Amburan kəndinin əhalisi əsasən dəmirçiliklə məşğuldurlar. Dəmirçi qəbiləsinin bir hissəsi isə XIX əsrin əvvəllərində Lənkəran rayonu ərazisinə köçmüş və Lənkəran şəhərinin indiki Qələyçilər(qalayçılar) məhəlləsində yaşayırlar. Lənkərana köçmüş dəmirçi qəbiləsinin tanınmış nümayəndələrindən olan tanınmılş inqilabçı-kommunist və hərbiçi, palkovnik Bala Məmməd Mistanlı, onun sağ əli olan dəmirçi Bəndiəli (digər mənbələrdə Əhmədəli) (ona öz aralarında Kot Əli demişlər). (Bax Talışca kötək vuran Əli deməkdir) olmşlar. Bala Məmməd Abdulla oğlu mistanlı 1885-ciilin martın 16-da Lerik rayonunun Mistan kəndində, misci-dəmirci və qalaycı ailəsində dunyaya gəlmişdir. Partizan dəstəsinin rəhbəri olan Bala Məmməd Mistanlı 1914-cu ildə Bakının Ramana neft mədənlərində işə başlamış və elə orada məşhur kommunist İ.V.Stalinlə tanış olmuş. Lakin bir il sonra Sarıtsin(indiki Volqaqrad) şəhərində fəhlə, 1917-ci ildə doğma yurduna qayıtdıqdan sonra öz ata-babasının dəmirçixanasında işləmişdir.1918-ci ildə partizan dəstələri yaradaraq cənub bölgəsinin yaşayış məntəqələrini qacaq quldur luləkəranlı Şahverəndən və digər quldurlardan, vətənimizi dağıdan erməni daşnaqlarından təmizləmiş və onların kabusuna çevrilmişdir.Bala Məmməd Mistanlı 1920-ci ildə Haftoni ərazisində yerləşən “İbadi” mineral bulaqlarında olmuşdur.O,

orada vaxtaşrı İ.V.Stalinlə və Orconokidze ilə yığışmışdır və orada bir müddət gozləmədə durmuşlar.Bala Məmməd Mistanlı 1920-ci ilin yanvarında Lənkəran həbsxanasından gunahsız insanları azad edib qayıdarkən şəhərin “Qala" hissəsində, kecmiş bankın, indiki doqquz mərtəbəli binanın yaxınlığında qəhrəmancasına həlak olmuşdur.Lənkəran şəhərində Bala Məmməd adına küçə vardır.Bəndiəlinin övladları olan tanınmış dəmirçi Əliyev Həsən bu dəmirçilik sənətini davam etdirmiş və sonra öz oğlu Cahangir Əliyevə ötürmüşdür.Cahangir Əliyevdən sonra dəmirçilik sənətini onun övladları olan Əliyev Orucəli Cahangir oğlu və Əliyev Böyükağa Cahangir oğlu davam etdirmişlər.Əliyev Orucəli Cahagir oğlu dəmirçilik sənətini öz övladladı Əliyev Famil Orucəli oğluna,Əliyev Böyükağa Cahangir oğlu isə bu sənəti oğlu Əliyev Elşad Böyükağa oğluna ötürmüşdür.Hal-hazırda adları çəkilən bu gənclər ata-babalarından onlara irs qalmış dəmirçilik sənətini sevə-sevə davam etdirirlər. *(Bax:Aqşin Mistanlı.”Haftoni:Qəlbimdəki yeddi bulaq”. səh. 283.”Elm və Təhsil”.Bakı-2018).*

**1/1/3.Ğələyçiyon (qalayçılar) qəbiləsi -** XIX əsrin əvvəllərində Lənkərana köçmüş və onla da Lənkəran şəhərinin qələyçillər (qalayçılar) məhəlləsində məskunlaşmışlar. Zaman-zaman bu tayfanın üzüvləri də qalayçılıqla məşğul olmuşlar.Qeyd etmək istəyirik ki, kitabın müəllifi Aqşin Əliyev mənşəcə özü də, sözü gedən qalayçılar tayfasındadnır.Mistanın Ğələyçiyon (qalayçılar qəbiləsi haqqında ən tutarlı məluta tarixçi Mirzə Əhməd bəy Mirzə Xudaverdi oğlu özünün 1855-ci ildə yazdığı “Əxbərnamə əsərində rast gəlirik.Belə ki, Əxbərnamə kitabında qalayçılar haqqında belə yazır:“Mir Həsən xan öz köçü, ailəsi və qoşunu ilə evini tərk edib Lənkəran şəhərindən çıxdı. Öz ailəsini tabelərinin köçlərilə birlikdə Siyahlələ kəndinə göndərdi. Özü də Darğakəndində (Bax:indiki Lənkəranın Darquba kəndi) sakin oldu. Ətrafdan Lənkəran şəhərini mühasirəyə aldı. Mir Kazım xan

bir gün öz atlı qarnizonu ilə Lənkərana daxil olan,Rusiya qoşununa [təsadüf etmiş] və atasından xəbərsiz bir neçə soldatı [tutub] əsir almışdı.Kələntəriyyə tayfasının xahişinə görə Kərbəlayı Ağababa bəy bu məzmunda xəbər göndərmişdi:
- «Siz mənim əvəzimə əsir edilmiş [soldatları] versəniz, onlar da məni azad edərlər!». Mir Kazım xan o soldatları atlılarının tərkinə alıb getmişdi.Əagərlər Qərəyçiobanı(Bax: indiki Lənkəran şəhərinin mistanlıların ğələyçiyon(qalayçılar) qəbiləsinin yaşadığı məhəllə) keçib Mir Ağa Mir Əsgər oğlunun dükanlarının yerində sıra ilə durmuşdular. Lənkəran tərəfdən də bir neçə nəfər kazak və müsəlman gəlib onların qarşısında sıra ilə durub bir-birilə danışıq aparırdı. [Ruslar] deyirdi:«Əvvəl soldatları verin, biz də Kərbəlayı Ağababanı azad edək!».Onlar hiylə işlədirdilər.Onların qarşısını almaq üçün Köhnərud (yeri məlum deyil) yolu ilə beş yüz soldat göndərmişdilər ki, o tərəfdən soldatlar, bu tərəfdən isə kazaklar Mir Kazım xanı dövrəyə alıb tutsunlar. Mir Kazım xanın bu hiylədən xəbəri yox idi.Birdən arxadan, yəni Sərdabəyi Xil tərəfdən soldatların gəldiyini gördükdə Mir Kazım xan öz dəstəsi ilə (50, b) cilovu geri döndərib görmüşdü ki, 65 arxadan soldatlar, qabaqdan da kazaklar [yolunu kəsmişlər]. Çarəsiz qalıb Lənkəran çayından keçmək ümidi ilə atlarını qibləyə tərəf çapmışdılar. Lakin oradan keçmək çox çətin idi. Su çox dərindən axırdı. Sahil isə türkün sözü uca bir yarğan idi. Fürsəti qənimət bilən əsir soldatlar atlıların tərkindən yerə atılıb Lənkəran tərəfə qaçdılar. Soldatlar atdan yerə atılarkən həmin atlıları tutmaq kazaklar gəldikdən sonra isə öldürmək istəyirdilər. Lakin atlılar min çətinliklə özlərini xilas edib qaça bildilər.*"(Bax:Mirzə Əhməd bəy Mirzə Xudaverdi oğlu.Əxbərnamə.Lənkəran-1855.səh.65-66)"*.Burada söhbət 1882-1883-cü illərdən gedir. Demək 1883-cü illərdə artıq mistanlılar Lənkəran şəhərində böyük bir ərazidə məskunlaşmış və artıq burada özlərinin bir neçə belini yaşıyırdılar.Əgər bunları nəzərə alsaq onda Lerik rayonunun digər kəndlərindən Lənkəran

gələn köçlərdən fərqli olaraq mistanlılar artıq XIX əsrin əvvəllərində,yəni 1800-cü illərdə Lənkəranda məskunlaşımışdılar. Qeyd etmək lazımdır ki, 1800-cü illərdə Lənkərana köçüb gəlmiş Mistan qəbilələrindən fərqli olaraq Lerikin Mondigah, Nısli, Pirəsora,Çayrud,Buzeyir və sair kəndlərindən köçlər yalnız XX əsrin ortalarında, yəni 1940-1950-ci illərdə köçüb gəlmişlər.Bu da mistanlıları Lənkəranın qədim sakinlərindən biri edir. Bundan əlavə Lənkəranda yaşayan mistanlıları 30-50-cı illərdə "Çex" adlandırmışlar.Lakin bu sözün əsl mənası "Çex" yox "Cek"-dir. Çünki "Cek" adı ilk zamanlar dağ yəhudilərin, sonradan tatların bir hissəsinə deyilsədə, daha sonralar isə konkret olaraq tatdilli qrupa xalqa şamil edilmişdir. Belə ki, bu xalq Bakı quberniyasının Quba qəzasında,Böyük Qafqaz dağlarının cənub ətəklərində yaşamışlar və əsasən dəmirçilik, misçilik və qalayçılıqla məşğul olmuşlar. Demək ceklər mistanlılra xas olan bu üç kustar sənət növlərinin üçünə də sahib olmuşlar.Əsrin əvvəllərində onların bir qrupu indiki əlçatmaz Lahıc ərazinə köçüb məskunlaşmış və indinin özündə ata-babalarının sənət növlərini yaşatmaqdadırlar və hal-hazırda Lahıc əhalisi Tatca danışır.Mistanlıların lahıclılara və ya Lahıcda yaşayan İrandilli tatlarla eyni kökdən olmaları və eyni mədəniyyətin daşıyıcıları olmaları şübhəsizdir.Çünki, bu hər iki etnik qrupu biri-birinə bağlayan və tarixi bilinməyən dövrlərə gedib çıxan qədim mədəniyyət və sənətkarlıq sahələri var. Belə ki, Mistan toponiminin əsasını təşkil edən "Mis" sözünə uyğun olaraq mistanlılar ata-babadan misgərlik, dəmirçilik və qalayçılıqla məşğul olmuş və onu nəsildən-nəsilə ötürmüşlər. Bundan əlavə bu sənətkar mistanlılar hansı diyarlara köçüb getsələr də bu mədəniyyəti və sənətkarlıq növlərini özləri ilə aparmış və yeni ərazilərdə yaymışlar.

**1/1/4.Çükəşon**(Ağac çəkənlər) **qəbiləsi -** XIX əsin əvvəllərində Lənkəran rayonunun Təngivan kəndi ərazisinə köçmüş və elə

oradaca məsgən salmışlar.Hal-hazırda bu qəbilənin nümayəndələri məhz bu məntəqə ərazisində yaşayırlar. Mistan kəndinin tarixi çox qədimdir. Belə ki, Mistan kəndini öz qədimliyinə görə Lerikin altı böyük və qədim kəndlərindən biri hesab etmək olar.Bunu Mistan kəndində yerləşən qədim tarixi abidələr sübut edir və bu abidələr aşağıdakılardır.

**1/1/5.Zərqəron**(zərgərlər) **qəbiləsi -** XIX əsrdə Lənkəranın şəhəri ərazisnə köçüb məskunlaşmış və hal-hazırda onların nəsilləri məhz bu məntəqələrdə yaşayırlar.

**1/1/6.Nunçiyon**(Çörəkçilər)**qəbiləsi** - XIX əsrə bu qəbilənin bir qismi Lənkəran şəhərinin Böyük bazar ərazisinə köçüb məskunlaşmışlar. Qəbilənin digər bir qismi isə vaxtı ilə yaylaq və qışlağa getdikləri Cəlilabad və Biləsuvar rayonları ərazisinə köçmüş və başqa qismi də, Lənkəran rayonunun Şovu və Yuxarı-Nüvədi kəndləri ərazisinə köçüb məskunlaşmışdır.



Lahıc.Qəsəbə Azərbaycanın şimalında, Böyük Qafqaz sıra dağlarının cənub yamacında dəniz səviyyəsindən 1505 m hündürlükdə yerləşir. Lahıc Girdiman çayının sahilində yer ləşməklə Babadağ və Niyaldağ silsilələ ri ilə əhatə olunur və ona təbii qala şəraiti bəxş edir. Belə bir coğrafi məkan qədim zamanlarda Lahıcın xarici təsirlərdən, basqınlardan yaxşı müdafiə olunması üçün imkan yaratmışdır.Maraqlıdır ki, qədim tarixə malik olan Lahıc kəndinin sakinləri İran dillərində danışırlar və məişət, mədəniyyət və sənətkarlıq baxımından Mistanlılara çox yaxındırlar. Belə ki, mistanlılar kimi lahıcların da qədim sənətkarlıq sahələrində əsasən misgərlik,dəmirçilik və

qalayçılıq üstünlük təşkil edir.Onlar bu sənəti ata-babadan qoruyub saxlamış və nəsildən-nəsilə ötürmüşlər.Belə ki, Lahıc XVIII-XIX əsrlərdə azərbaycanın misgərlik və silah istehsalı mərkəzlərindən biri olmuşdur.Lahıc ustaları misdən hazırladıqları,mürəkkəb və incə naxışla bəzədikləri dolça, satıl, sərnic,məcməyi,sərpuc,güyüm, aşsüzən, kəfgir,kasa,cam, qazan, çıraq və sair məmulatlar Orta Asiya, İran,Gürcüstan,Dağıstan və Türkiyədə tanınıb.1980-cı ildən muzey-qoruğa çevrilmiş və Lahıcda həmin illərdən yadigar qalan məhəllə məscidləri, su kəməri və kanalizasiya,Girdiman qalası qayğı ilə qorunur. Burada 1859-1864-cü illərdə həyata keçirilmiş kameral siyahıya almaya əsasən Bakı quberniyasının Şamaxı qəzasının Lahıc kəndində 589 evdə tatlardan ibarət 5228 nəfər (2.889 nəfər kişi,2.339 nəfər qadın) əhali yaşayırdı.*(Вах,Сборник материалов для описание местностей и племен Кавказа»Издание Управления Кавказского учебного округа.Выпуск двадцать девя-тый.Тифлись. Типография канцелярии главначальствующ его гражданство чатью на Кавказе и К. Козлавскаго. 1901.Отдел второй. стр. 79).Bu ailələrdən 10 sunni müsəlman ailəsi, qalanı isə şiə idi.(Вах. Списки Населенных пунет Российской империи. По Кавказскому краю составленные и издаваемые Кавказскими статистическими комитетом при Главном управлении Наместника Кавказского LXV. Бакинская губерния. Списокь на-селенных мест по сведениям 1859-1864 годь. Кавказским статистическимь комитетом при Главном управлениемнаместника кавквзского. Составленном главным ре-дактором. Комитета Н. Зейдлицем. Тифлись. В типографии главного управленя наместника кавказского. 26 ноября 1870. Содержание Список населенных мест Бакинской губернии. стр. 30).*Belə ki,1 yanvar 1886-cı il tarixinə olan məlumata görə Lahıc kəndində 3.817 nəfər kişilər və 3.098 nəfəri qadınlar olmaqla cəmi 6. 915 nəfər əhali yaşayırdı.Onlardan 117 nəfəri (10 ailə) bəy ailəsindən, 40 nəfəri (3 ailə) ruhani ailəsindən, 6. 758 nəfəri isə (89 ailə) dövlət kəndliləri nəslindən idi.*(Вах. »Сборник материалов для описания местностей и племен Кавказа» Тифлись.1901.стр.78).* Bundan əlavə Lahıcda yerli Lahıc tatlarından başqa oraya sonralar gəlmiş Şamaxı şəhərindən olan bir neçə ailə,

Qacar şahənşahlığı təbələri olan bəzi ailələr və Samur dairəsinin Miskincə kəndindən olan bir neçə Ləzgi ailəsi yaşayırdı. Məmbələr göstərir ki, lahıclıların ata-babadan məşğuliyyəti elə mistanlılarda olduğu kimi misgərlik,dabbaqlıq,çəkməçilik, papaqçılıq, sərraclıq, dəmirçilik, həkaklıq, dərzilik və digər sənət növləri olmuşdur. XIX əsrdə Rusiyanın İjevsk silah zavodunda Lahıc ustalarının təcrübəsindən istifadə olunmuşdur. Lahıcın tanınmış şəxsiyyətlərin - Manaf Süleymanov -yazıçı,nasir, tərcüməçi,Azərbaycan Respublikası Əməkdar Mədəniyyət Xadimi Əli Bayramov – inqilabçı,Şövkət Səlimova ilk Azərbaycanlı qadın gəmi kapitanı, Babayev İkram Sani Oğlu alim, Əhmədov Rəsul – Alimdir.

**1/1/7.Lahican.** Başqa bir maraqlı fakt odur ki, Lahıc toponiminə uyğun olan Lahican farsca Lahıclar deməkdir) şəhəri də İranın Mazandaran vilayətinin, Xəzər dənizi sahillərində yerləşir və bu şəhərin yaxınlığında, yuxarıda qeyd etdiyimiz qədim Mistan kəndi yerləşir.Əlbətdəki bu təsadüfi deyil.Çünki, İranda yerləşən Lahican məntəqəsinin əhalisi də Misgərlik, dəmirçilik, qalayçılıq və digər sənətkarlıq növləri ilə məşğuldurlar.

**1/1/8.Mistan yaşayış yeri və qədim qəbiristanlıq.** Mistan qədim yaşayış yeri və qədim qəbiristanlıq öz səviyyəsinə görə ölkə əhəmiyyətli arxeoloji abidədir. Bu abidənin tarixi XV-XVI əsrlərə aiddir. Bu qədim qəbiristanlıqda XV əsrə aid orta əsr qədim qəbirlər mövcuddur və bu qədim məzarlıqda mistanlıların ulu babaları dəfn edilmişdir. Bu abidənin invertar nömrəsi 1476, sistem kodu isə AJA001498 – dir.*(Bax:Azərbaycan respublikası Mədəniyyət Nazirliyi saytı. ).*

**1/1/9.Mistan Meydan kurqanları.**Mistan kəndi ərazisində mövcud olan qədim abidələrdən biri də,Mistan Meydan

kurqanlarıdır. Mistan Meydan kurqanları öz səviyyəsinə görə ölkə əhəmiyyətli arxeoloji abidədir.Buradakı kurqanlar Tunc dövrünə aiddir.O zamanlar Azərbaycan Elmlər Akademiyasından Mistan kəndinə bir qurup arxeoloq və tarixçi getmişdir. Bu qrupun rəhbəri akademik İdeal Nərimanov olmuşdur.Akademik İdeal Nərimanov Mistan Meydan kurqanlarında arxeoloji tədqiqatlar aparmış və Mistan Meydan kurqanlarını Son Tunc – ilk dəmir dövrünə aid etmişdir. Çünki orada son Tunc – ilk dəmir dövrünə aid maddi-mədəniyyət abidələri-tunc qəmə, təbərzin baltalar,tuncdan ox ucluqları və s.üstünlük təşkil edir.Bu kurqanların invertar nömrəsi 1479 və sistem kodu isə AJA001501 – dir.

**1/1/10.Mistançay.**Hidronim,Lerik rayonunun Mistan kəndi ərazisində çay.Çayın adı Talış dilində Mistonçay adlanır və Talış dilində mist, mis, - on cəmlik bildirən şəkilçidir", çay" isə coğrafi termindir. (Bax:"Azərbaycan toponimlərinin ensiklopedik luğəti". İki cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2007, səh. 113. )




*Şəkil. Lerik rayonunun Mistan kəndi. Şəkil. Lerik rayonunun Mistan kəndinin İmam Musey-i Kazım məscidi.*

**1./2.Azərbaycan respublikasının Qubadlı rayonundakı qədim Mistan kəndi.** Mistan adlı ikinci məntəqə Qubadlı rayonunda mövcud olmuşdur. Qubadlı rayonundakı qədim Mistan kəndi bir müddət sonra sakinləri tərəfindən tədricən tərk edilmiş və əhalisi qismən yarımköçmə yayalaq maldarlığına, digərləri isə qonşu Zəngilan rayonu ərazisində yerləşən yaxın kəndlərə

səpələnmişlər.Qubadlıdakı Mistan kəndi dağlarda mövcud olmuşdur və hal-hazırda o kəndin mövcudluğu sual altındadır. Qubadlı rayonunda Mistan kəndinin mövcud olması barədə Rübabə Muradova özünün Azərbaycan toponomiyası kitabında məlumat vermişdir.*(Bax:"Azərbaycan toponimlərinin ensiklopedik luğəti". İki cilddə. I cild.Bakı, "Şərq-Qərb",2007, səh. 236).*Qeyd etməliyəm ki, Qubadlı kəndində mövcud olmuş Mistan kəndinin əhalisi əsasən Kürd millətindən olmuş və Kürd dilinin "Kurmanici" ləhcəsində danışmışlar.

**1./3.Türkiyənin Mista-Serla kəndi.** Mistan adlı üçüncü kənd qonşu Türkiyə respublikasının Diyarbəkir şəhərinin Bingöl ilinin Gənç ilçəsində yerləşmişdir. Bu məntəqə dağlıq ərazidə yerləşir və əhalisi əsasən Zaza-etnik qrupu yaşayır və onlar İran dillərində danışırlar. Bu məntəqənin əhalisi Lerikin Mistan kəndinin əhalisinindən adət-ənənə və milli geyiminə görə heçdə fərqlənmirlər. Kənd əhalisi əsasən dəmirçiliklə məşğuldur.(AKP) (Bax:www. hgk. gov. tr).İlçə mərkəzinin dəniz səviyəsindən yüksəkliyi 1125-dir. İlçə sərhədləri içində Mistanın bələdiyyəsi ilə birlikdə 2 qəsəbə bələdiyyəsi mövcuddur.Bunların ən qədimi də, Mistan kəndində yerləşir.Belə ki,Koroğlu dastanındakı Koroğlunun oğlu olan Kürdoğlu məhz bu nahiyədəndir. Türkiyənin bu Mistan kəndində məşhur Şeyx Sait adlı (Şeyx Səlid) adlı tanınmış dindarın nəsli yaşayır.Şeyx Səid 1925-ci ildə silahlı dəstə yaratmış və Diyarbəkir bölgəsini zəbt etmiş və, zəbt etdiyi kəndlərdən bütün vergiləri Mistan kəndinə toplamış və oranı özünə mərkəz elan etmişdir.Hal-hazırda Türkiyənin bu ərazisində yaşayan əhali "Mistan aşirəti"(Mistan qəbiləsi) adlanır.*(Bax.Tigris saytı. 2017. 11. 22. ).*Maraqlısı budur ki, muasir Türkiyə tarixində tarixçilər Diyarbəkir Zaza-mistanlıları haqqında belə yazırlar."Ləhcəcə Zaza mistanlıları,Hind-Avropa dil ailəsinin İran dilləri qrupunun şimal-qərb qoluna daxildir.Bəluci,

Qorani və Səngsəri dili ilə şimal-qərb qolunun Hirkan alt qurupunu təşkil edir.Zaza mistanlılarının digər qohum olduqları dillər arasında Talış,Mazandaran,Səmnan,Gilək,Tat,Hərzəni və Kürd dili hesab edilir.Belə ki, qramatik xüsusiyyətlərinə və sözlərin oxşarlığına görə türkiyə mistanlılarının danışdıqları dilə yaxın olan dillər şimali İranda Xəzər dənizi sahillərində yaşayan xalqların dilləridir. Professor Doktor J.Gipper və P.Lesoq Türkiyə Mistanlılarının danışdıqları bu dili şimal-qərbi İran dillərinə daxil edir. *(Bax. Zaza-Mistan aşireti. Kardeşligin adresi saytı. )*





Şəkil. Mistan kəndi. Türkiyə, Diyarbəkir ilinin, Bingöl ilçəsinin, Genç mahalının Mistan-Serla kəndi.
Şəkil. Türkiyənin Mistan-Serla kəndində ənənəvi Mistan evi.

**1./5.Türkiyə Respublikasının Zonquldaq ilinin Mistan kəndi.** Bu Mistan kəndi Türkiyə Respublikasında Mistan adındakı sayca ikinci kənddir və Zonquldağ ilinin Amasra köyünə bağlıdır. Oxşarlıq sadəcə adət-ənənədə deyil həm də milli geyimlərdə, milli yeməklərdə və folklorundadır.Ehtimal ki,Zonquldaq ilində yerləşən Mistan kəndinin əhalisi elə Diyarbəkir vilayətinin Bingöl ilində yerləşən Mistan Serla kəndindən köçüb gələnlərdir.Onlar yəqin ki, oradan köçüb Qara dəniz sahilində yerləşən Zonquldağın Amasra ilçəsinə gəlmiş və orada məskunlaşaraq Mistan kəndinin əsasını qoymuşlar.






*Şəkil. Türkiyə Respublikasının Zonquldaq ilinin Mistan ağa kəndinin xəritəsi.*
*Şəkil. Türkiyənin Mistan kəndlərindəki Mistanlı qadın milli geyimdə.*

**1/6.İranın Mazandaran vilayətinin Mistan kəndi.** Mistan adında kəndlərdən biri də, İran İslam Respublikasının Mazanadaran ostanının,Cuybar nahiyəsinin Gilxoran qəsəbəsinin Çəpəğrud mahalında yerləşir.Bu kənd El-Burs dağının ətəyində yerləşir. Əsasən dağətəyi kənddir.Kəndin əhalisinin əksəriyyətini talışlara yaxın və qohum olan etnik qruplar təşkil edir. Əhalisi 2006-cı ilin siyahıya almasına görə 715 nəfər olmaqla 188 ailə olmuşdur. Mazandaranın Mistan kəndinin koordinatları 36 dərəcə 40`36 dərəcə N 52 dərəcə 49`509 dərəcə E-dir.Bu kəndin əhalisi dəadət ənənə,antropoloji quruluşu və milli geyimlərinə görə mövcud olan digər Mistan adlı kəndlərin sakinlərindən heç də fərqlənmirlər.Uzun zaman keçmələrinə baxmayarq ata-babalarının gətirdikləri adət-ənənəni nəsildən-nəsilə ötürərək günümüzə qədər saxlamaqdadırlar. Lakin bu ərazidə yaşayan əhalinin danışdıqları Kürd ləhcəsi, Kürd dilindən çox Talış dilinə yaxındır.Tanınmış sufi Şey Zahid Gilaninin atası Şeyx Rövşən Əmir İranın bu Mistan kəndindən olan bir dəmirçinin qızı ilə evlənmişdir.Sonralar isə Şeyx Rövşən Talışa köçmüş və Lənkəran rayonunun Siyavrud(indiki Siyavar) kəndində yaşamışdır.Deməli Şeyx Zahid Gilani ana tərəfdən Mazandaranın Mistan kəndindəndir.





*Şəkil. İranın Mazandaran vilayətindəki Mistan kəndində Mistanlı Nənə və baba Mistan milli geyimində.*

**1/7.İranın Hörmüzqan ostanının Mistan kəndi.** Bu kənd İran İslam respublikasının Hörmüzqan ostanının,Bəstək mahalının Cenah qəsəbəsinin Cinah nahiyəsində yerləşir.Kəndin əhalisi 2006-cı ilin siyahıyaalmasına görə 156 nəfərdir.Bu Mistan kəndinin saat qurşağı UTC+3-30 (İRST) , ya vaxtı isə (DST) UTC+4-30 (İRDT)dir. Bu Mistan kəndi də dağlıq ərazidə yerləşir və əhalisi əasən talışlardan və ona mənşə və dil baxımından qohum olan etnik qruplardan oluşaraq Talış dilnin ayrı-ayrı ləhcələrində danışırlar.Bu Mistan kəndinin əhalisi də öz antropoloji quruluşu və adət-ənənəsinə görə digərlərindən heçdə fərqlənmir ki, bu da onların eyni kökdən gəlmələrinə dəalalət edir.Bu kənd İranın Fars körfəzi sahilində yerləşən Hörmüzqan vilayətində yerləşir.Burada yerləşən Mistan kəndinin necə yaranması və bu kənddə yaşayan mistanlıların bu əraziyə haradan gəlmələri barədə hələlik məlumat yoxdur.Lakin,ehtimal ki, onlar da, bu əraziyə İranın Talış mahallarından və ya Talış dağlarının İrandakı ətəklərindən köçüb gəlmiş və burada məskən salıb Mistan kəndini yaratmışlar.






*Şəkil. İranın Hörmüzqan vilayətinin Mistan kəndinin xəritəsi.*
*Şəkil. İranın Hörmüzqan vilayətinin Mistan kəndindəki Mistan qalası.*

**2.Rəzqov.** Rəzgöv kəndinin tarixinə keçməzdən əvvəl kəndinin adının mənasına nəzər salaq.Belə ki, kəndin adı Talış dilində Rəzqodur.Belə ki,Talışca "Rəz" (üzüm tənəgi),"qo" isə (gah) yer deməkdir.Tam mənası isə "tənək yeri" deməkdir.Rəzgöv kəndi haqqında yazılı mənbələrdə hər hansı bir məlumatlara rast gəlmək mümkün deyil.Lakin 1904-cü ildə çar Rusiyasının siyahıya alınması zamanı Rəzgöv kəndinin adı çəkilir.Belə ki, bu siyahıyaalma zamanı Rəzgöv kəndində 157 tüstü, (yəni ev),469 nəfər,o cümlədən 268 nəfər kişi və 201 nəfər qadın yaşadığı göstərilir. Sözü gedən dövürdə Zuvandın özündə 18 min nəfər əhali yaşamışdır.Bu da, Rəzgöv kəndinin hələ o dövürlərdə qədim kənd olmasına işarədir.*(Вах:Кавказский календар.1904-1905. Типография А.А.Кутателадзе.Тифлись.1904)*.Belə ki,Nazirləq kabinetinin kataloqunda XIII əsrdə qeydə alınmış yaşayış məntəqələrinin siyahısında Rəzgöv kəndinin adı qeyd edilmişdir. Fransanın Sen-Jermen muzeyinin əməkdaşı Jak De Morqan tərəfindən 1890-cı ildə Rəzgöv kəndinin ərazisində, O cümlədən, kənd qəbiristanlığında arxeoloji qazıntı işləri aparmışdır. Qazıntı işləri zamanı Morqan Rəzgöv qəbiristanlında olan daş-qutu qəbirlərini tədqiq etmişdir. O bu qazıntılardan sonra Rəzgöv kənd qəbiristanlığını Talış-Muğan mədəniyyətinin I mərhələsinə,

yəni b. e. ə. XIV-XIII əsrlərə aid etmişdir.Bundan əlavə Jak de Morqan Bəhri Siyab türbəsi haqqında məlumat vermişdir. ”Bəhri Siyab” türbəsi Rəzgöv kəndinin ərazisində yerləşir.Türbə Bəhri-Siyab adında bir din xadiminin adı ilə bağlıdır.Bəhri Siyab türbəsinin ərazisində orta əsrlərə aid qəbiristanlıq da vardır.Bu qəbiristanlıqda 2 daş qoç heykəl vardır.Bu daş qoç heykəllrə əsasən Bəhri Siyab türbəsinin XVI_XVII əsrlərə aid etmək olar. Rəzgöv kəndi haqqında məlumatlardan biri də Mirzə Xudaverdi oğlunun XIX əsrdə yazdığı “Əxbərnamə” kitabında məlumat verilir. Belə ki, bu kitabın 61-ci səhifəsində qeyd olunur ki, mayor İlinski beş yüz nəfər atlı kazak və Rus dəstəsi ilə Mir Həsən xanın Lənkərandakı evinə hücüm edir. Onun qardaşı Mir Hüseyn xanın ailə üzüvlərindən bir neçə nəfəri həbs edirlər. Digərləri isə əvvəllcədən xəbərdar olduqlarından Şilavar kəndinə tərəf çəkilirlər.Oradan da, Rvo kəndinə, sonra isə Rəzgöv kəndinə çəkildilər.

**3.Orand**. Cənub bölgəsinin hər qarış torpağı qədim abidələrlə zəngindir. Çünki bu gözəl yurdun hər elində, hər obasında böyük bir tarixi özündə əks etdirən abidələr və insanlıq əsəri yatır. Bu insanlıq əsəri yurdumuzun bəşər tarixində ən qədim sivilizasiya mərkəzlərindən biri olduğunu göstərir.Belə abidələr cənub bölgəsində daha çox rast gəlmək olur.Bu tipdə olan abidələrə qədim qəbiristanlıqlar və qoç fiqurlu başdaşılar daxildir.Qoç fiqurlu başdaşılar Azərbaycanın başqa yerlərində yerləşən abidlərədə təktük olduğu halda cənub bölgəsində isə bunlar kütləvidir.Belə qəbirsanlıqalrdan biri də Lerik rayonunun Orand kəndində yerləşən "köhnə Orand" adlı ərazidə olan qədim qəbirsanlıqdır.Orand,Lerik rayonunun inzibati ərazi vahidində kənddir. Orand kəndi 38 dərəcə 44`55` şim.e.48 dərəcə 20`46 dərəcə ş. u. \38. 74861 dərəcə şm. e. 48. 34611 dərəcə ş. uzunluğunda yerləışir. Orand kəndinin əhalisi 1534 nəfərdir

(2009),saat qurşağı isə UCT+04-00-dır.Orand kəndi Lerik rayonunun Pirəsora inzibati ərazi vahidində, Bilnə çayının sahilində və Peştəsər silsiləsinin yamacındadır. 8 fevral 2000-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə Orand kəndi Pirəsora kənd inzibati ərazi vahidi tərkibindən ayrılaraq, həmin kənd mərkəzi olmaqla Orand kənd inzibati ərazi vahidi yaranmışdır. Mənbələrin məlumatına görə, XIX əsrdə Lənkəran qəzasında maldarlıqla məşğul olmuş orandlılar 3 qoldan ibarət idilər. Onlar qışı Muğanda, yazı isə Talış dağlarında keçirirdilər. Onlardan birinci qolu Ləzran, ikinci qolu Orand, üçüncü qolu isə Nüravud kəndlərini salmışlar.Bu orand kəndində qədim qəbirsanlıq yerləşir. Bu qədim qəbirsanlıq "köhnə Orand" adlı ərazinin "kələ tıbə" adlıanan yerində yereləşir.Burada tarixi bilinməyən daş qutu qəbirlər var. Buradakı qəbir daşları öz qədimliyinə görə xüsusi bir dövrü özündə əks etdirir.Beləki, bu daş qutu qəbirləri müxtəlif ölçüdə və müxtəlif formada olmaqla bir neçə dəfn adətini özündə əks etdirir.Orand kəndində yerləşən bu daş qutu qəbirlər öz dəfnetmə adətinə görə 6 hissəyə ayrılır.

*1.Hündürlüyü 10sm olan və yastı çay daşlarını xatırladan və dərə-daş tikələrindən ibarət olan qəbir daşları.*
*2.Hündürlüyü 40 sm olan və üst hissəsi üç dairəvi oval formasında çıxıntısı olan və üzərində müxtəlif astronomik işarələr olan qəbir daşları.*
*3.Hündürlüyü 40 sm olan və aşağı hissəsi dairəvi və günəşi əks etdirən dişli dairə formasında olan və üst hissəsi isə daha az dairə formasında olan və orta əsr Səfəvi-Sufi qəbirlərinə oxşar qəbir daşları.*
*4.Hündürlüyü 80sm olan və üzərində saçaqlı günəş və orta-sında Davud peyqəmbərin 6 güşəli ulduzunu xatırladan 6 güşəli ulduz işarəli qəbir daşları.*

*5.Hündürlüyü 30 sm olan və üzərində müxtəlif cür döyüş silahlarının şəkli olan qoç fiqurlu qəbir daşları.*

*Birinci tipə* aid olan çay daşlarını xatırladan daşlardan ibarət qəbir daşları qiblənin əksi istiqamətindədir və bu da onun islamaqədərki qəbir olduğunu göstərir.Bu tip qəbirlərin sağ və sol tərəfində 6 cüt daş var.Ehtimal ki bu daşların sayı bu qəbirdə dəfn olunan şəxsin dini inancını bildirmişdir. Bu tip qəbirlər şimali qafqazda və cənubi Rus çöllərində yaşamış maldar və İrandilli kimmer-Sak və Skif tayfalarına aid tapılmş qəbirsanlıqlarda da rast gəlmək olur. Belə qəbir daşları Lənkəran çayının sahilində yerləşən Bobogil qəbirsanlığındada var və bunlar eyni dəfnetmə mədəniyyətinin nümunəsisir.

*İkinci tipə* aid olan qəbir daşları hündürlüyü 40 sm-dir və yuxarı hissəsində üç oval – dairə formada  işarələr var.Üzərində müxtəlif astronomik işarələr olan qəbir daşlarının üzərində isə yuxarı ovalda kainatı əks etdirən işarə, sağ və sol hissəsəki oval dairəsinin içərisində isə Davud peyğəmbərin altıgüşəli ulduzu var. Bu tip qəbir daşlarına Bobogil qəbirsanlığında,Yardımlının Şiləvəngə kəndindəki qədim qəbirsanlığında və Laçının Malıbəyli kəndindəki qədim qəbirsanlıqda rast gəlinir.Bundan əlavə belə qəbir daşlarına şərqi avropadakı qədim qəbirsanlıqlarda rast gəlmək olur.

*Üçüncü tipə* aid olan və hündürlüyü 40 sm-dir.Alt hissəsi günəşi xatırladan dairəvi-oval formalı qəbir daşları isə orta əsr sufi-Səvfəvi qəbir daşlarına bənzəyir.Lakin bu qəbir daşlarının İrandilli maldar Kimmer tayfaalarına aid olan qəbir daşlarına oxşarlığı istisna deyil. Bu qəbir daşlarının oxşarı Lənkəran çayı sahilində yerləşən qədim Bobogil qəbirstanlığında, yardımlı rayonunun Şiləvəngə kəndindəki qədim qəbiristanlığında və

Laçın rayonunun Malıbəyli kəndindəki qədim qəbiristanlığında rast gəlinir.Bu tip qədim qəbirlər eyni dəfnetmə qəbir mədəniyyətinə aiddir.Bu qəbir daşları qiblənin əksinədir və islamaqədərki məzarlıqlara aiddir.

*Dördüncü tipə* aid olan və hündürlüyü 80sm olan qəbir daşları isə üzərilərində Günəş təsfiri və onun içərisində də Davud peyqəmbərin 6 güşəli ulduzunu xatırladan təsfiri var. Yenə qeyd etməliyəm ki bu tip qəbir daşlarına həm Bobogildə, həm Laçın rayonunun Malıbəyli qəbiristanlığında,həm Yardımlının Şiləvəngə qəbirsanlığında rast gəlmək olur. Bu qəbirlər qiblənin əksinədir və şübhəsizki,islamaqədərki dini inanclara bağlı olan qəbir daşlarıdır.

*Beşinci tipə* aid olan və hündürlüyü 30sm olan qoç fiqurlu qəbir daşlarına isə cənub bölgəsinin demək olar ki hər yerində və hər qədim qəbirsanlığında rast gəlmək olur.Bu cür qəbir daşları şərqi Avropa düzündə yaşamış İrandilli maldar Kimmer tayfalrına aid olan qəbiristanlıqlarda daha çox rast gəlmək olur.Beləki qədim Bobogil qəbirsanlığında,Şiləvəngə(Yardımlı) kənd qəbirsanlığında, Malıbəyli (Laçın) qəbirsanlığında, Cəngəmiran (Lerik) kənd qəbiristanlıqlarında və Coni,Tülü və Sori kəndindəki qədim qəbirsanlıqlarında rast gəlmək olur. Bu qəbirlər Antik orta əsrlərə aiddir.Azərbaycan tarixçilərinin bir qismi bu tipdə olan qoç fiqurlu qəbir daşlarını Ağqoyunlu və Qaraqoyunlu tayfalarına aid edir. Lakin Tarixçi Araz Qurbanov bu qoç fiqurlu qəbir daşlarının Ağqoyunlu və Qaraqoyunlu tayfalarına aid edilməsi fikri ilə razılaşmır.O, qeyd edir ki, bu cür qoç fiqurlu qəbir daşlarının yanında dini ayinlər həyata keçirilib. Ümumilikdə götürdükdə isə həqiqətəndə bu qəbirlərin Ağqoyunlu və Qaraqoyunlu tayfalarına aidolduğu fikir səhvdir.Çünkü bu qoç fiqurlarının üzərində heç bir ərəb əlifbası ilə yazılar yoxdur. Necə

olar ki, adlı-sanlı Oğuz tayfa başçıları və bəyləri dəfn edilərkən onların məzar daşlarında onların nə adı nə də haqqında heç bir yazı həkk olunmayıb.O səbəbdən də bu qoç fiqurlu qəbir daşları elə yerli orandlıların ata-babalarının islamaqədərki dini inanclarını əks etdirən qəbir daşlarıdır.Bu qoç fiqurlarının aşağı hissəsi dördkünc formada bir keçid var.Yerli sakinlərin inanclarına görə kimin günahı varsa bu deşikdən keçə bilməz. Yox əgər o insanın günahı yoxsa və qəlbi təmizsə və kök olsa belə bu qoç fiqurunun altındakı deşikdən rahatca keçəcək. Bu cür qoç fiqurları erkən orta əsrlərə aiddir.Bu qəbir daşlarından əlavə Orand kəndində "kələ tıbə" adlı ərazidə qədim bir ziyarətgah var. Yerli sakinlərin dediklərinə görə burada Məhəmməd peyqəmbərin səhabələrindən olan Ahkəşə ibn Möhsün Əsəd və onun digər tərəfdaşları dəfn olunub. Onlar orta əsrlərdə islamı təbliğ etmək üçün Talış mahalına üz tutmuşlar və elə ömürlərini bu yerlərdə başa vuraraq burada da dəfn olunmuşlar. Sonralar bu müqəddəs şəxslərin məzarları ziyarətgaha çevrilmişdir.Zaman-zaman qonşu kəndlərdən əhali müqəddəs aylarda bu məzarı ziyarət etmək üçün axışmışlar.Bu türbə bu gün də çox dəyərli və müqəddəs bir xiyarətgah sayılır.Digər qəbir daşlarına gəldikdə isə baxımsızlıq ucubatından və təbii sel suları və palçıq sürüşmələri nəticəsində torpaq altında qalmışdır. Lakin yerli sakinlər tərəfindən torpağın alıtından çıxarılaraq abadlaşdırılıb sıralanmışdır. Bu məzarlıqların arasında diqqəti çəkən bir məzar var.Bu qəbir daşının digərlərindən fərqi ondadır ki, onun sinə daşının üzərində kiçik bir oyuq var. Yerli sakinlər niyyət edib kiçik bir daşı o oyuğun ortasına qoyurlar.Beləki yerli inanclara görə niyyəti çin olacaq insanın daşı oyuğun içində qalacaq, niyyəti çin olmayan insanın isə daşı yerə düşəcəkdi. Bu cür rəngarəng bir adət ənənə şübhəsiz ki, böyükl bir mədəniyyətin daşıyıcıları olan orandlıların çox qədim bir mədəniyyətə və adət-ənənəyə malik olmalarını göstərir. Orand kəndində bu qədər qədim qəbursanlıqların olması onun

qədimdə bir dövlət mərkəzi olduğunu sübut edir. Orand,ehtimal ki, qədim Arattadır.



*Şəkil. Köhnə orand ərazisində islamaqədərki qədim qəbir daşları*



*Şəkil. Köhnə orand ərazisində islamaqədərki qədim qəbir daşları*

**4.Cəngəmiran.**Azərbaycan tarixinin ən keşməkeşli dövürlərindən biri də antik antik çağlardır. Bu dövürlərdə Azərbaycan ərazisi köçərilərin basqınlarına məruz qalmış və onların cəng meydanına çevrilmişdir. Lap qədim zamanlardan bəri həm təbii fəlakətlərin həmdə köçərilərin yürüşlərini nəzərə alaraq əcdadlarımız yadellilər üçün əlçatmaz olan dağlarda məskən salmış və elə oradaca öz mədəniyyətini yaratmışlar.Dağ yerlərindəki həyat tərzinə uyğun olaraq əcdadlarımız qoyunçuluq və maldarlıqla məşğul olmuş və bu sahələrə üstünlük verərək onu öz həyat şəraitinə uyğunlaşdırmışlar.Belə ki, qoyunçuluqla məşğul olan insanlarımız qoyunu öz dini inanclarına və mənəvi dəyərlərinə qədər aparmış və onun bir parçasına çevirmişlər.Bu cür inanc növü onlara aid olan və antik dövürlərdə mövcud olmuş qəbir daşlarında da özünü əks etdirir. Bunlara qoç fiqurlu qəbir daşları deyilir. Belə qəbir daşları yurdumuzun hər yerində mövcuddur və bu tipdə olan qoç fiqurlu qəbir daşlarına cənub bölgəsində daha çox rast gəlinir. Bu da şübhəsiz ki, cənub regionu əhalisinin ta qədim zamanlardan bəri oturaq qoyunçuluqla məşğul olduğunu göstərir. Belə qədim qəbirsanlıqlarından biri də Lerik rayonunun Cəngəmiran kəndindəki qoç fiqurlu daş qutu qəbirlərdir. Cəngəmiran kəndi dağlıq ərazidə yerləşir.*(Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsü.Məlumat toplusu.Bakı-2013-cü il.488-ci səhifə).*Kəndin əhalisi 1419 nəfərdir. (Azərbaycan respublikası əhalisinin siyahıyaalınmasıl 2009-cu il . I cild. Bakı - 2010-cu il).Cəngəmiran kəndi 38 dərəcə 45`35 şm e. 48 dərəcə 2626`21 ş. uzunluğunda yerləşir. Kənd mərkəzinin hündürlüyü 1599 metrdir. Cəngəmiran kəndinin saat qurşağı UTC+04-00-dir. Poçt indeksi AZ4300-dür.Cəngəmiran kəndi Lerik şəhərindən 1km aralıda, dağlıq ərazidə yerləşir.Cəngəmiran kəndi Talış mahalının ən qədim kəndlərindən biridir.Cəngəmiran kəndinin adı tarixi mənbələrdə XII əsrdən bu yana çəkilir. Orta əsrlərdə buradan şərq ölkələrinə karvan yolları olmuşdur.Bəzi tarixçilərin Cəngəmiran

adını Talışca“Cənqəmiyon” döyüş meydanı kimi vermişlər.Onlar bunu Əmir teymurun qoşunu ilə gedən muharibələrə görə vermişlər.Digər tarixçilərin fikrincə isə bu kəndə Cənqəmiyon adı Babəkin ərəb işğalçılarına qarşı Talış dağlarında apardığı döyüşlərdən birinin məhz bu kənd ərazisində baş verdiyinə görə vermişlər.Bəzi tarixçilər hesab edirlər ki,Əmir Teymur Cəngəmiranda heç vaxt olmayıb. XVIII əsrdə,Talış xanlığının dövründə buradan Rusiya ilə əlaqə saxlanılırdı. Dırıq hakimlərinin iqamətgahı da məhz bu kənddə olmuşdur.Mənim fikrimcə Cəngəmiran kəndinin adının digər iki varıantı da var. Birincisi "Cəng-e Əmiran-yəni Əmirlərin cəngi", ikinci variant isə "Cəng-e Miran"- yəni "ilanların cəngi"dir. Əmirlərin orada olmamasını nəzərə alsaq ikinci variant daha həqiqətə uyğundur. Beləki, kəndin adının"Cəng-e Miran" yəni "ilanların cəngi" mənasını verməsi daha həqiqətə yaxındır.Məsələn Əmir Teymurun oğlunu çox qəddar olduğuna görə farsca "Miran şah" yəni "ilanlar şahı" adlandırırdılar.Lakin bu adın ən çox geniş yayılmış forması isə “Canqəmiyan"(Cəngəmiyan) sözüdür ki, bu ən doğru yanaşma sayılır.Belə ki. ərəbdilli mənbələrə baxdıqda orada 642-ci ildə taleşan hakimi Bəhram Fərruxzad öz sərkərdələri olan Fərhad,Cobir nasar və digərləri ilə birgə məhz burada ərəblərlə toqquşmuş və böyük bir cəng olmuşdur. Ehtimal ki, elə talışca olan canqəmiyan sözü də buradan yaranmışdır. Cəngəmiran kəndi çox səfalı və mənzərəli yerdir. Kənddən qırağda yerləşən qədim qəbirstanlıq sübut edir ki, bu kəndin tarixi çox qədimdir.Tarixi mənbələrdən bizə aydın olur ki, cəngəmiranlılar döyüşkən tayfa olmuş, hərb sənətinə yiyələnib, onu yaxşı mənimsəmişlər.Bu qoç fiqurlu qəbirl daşları Cəngəmiran kəndinin"Xəlifə Zəkəriyyə" adlı qədim qəbirsanlığında yerləşir.Qeyd etməliyəm ki, bu tip qoç fiqurlu qəbir daşları təkcə Cəngəmiran kəndindəki Xəlifə Zəkəriyyə qəbirsanlığında deyil, Bobogil qəbirsanlığında,Orand kəndindəki "köhnə Orand" adlı ərazinin "kələtıbə" adlı qəbirsanlığında,

Astara rayonundakı Maşxan qəbirsanlığında, Yardımlı rayonunun Şiləvəngə kənd qəbirsanlılğında və Laçın rayonunun Malıbəyli kənd qəbirsanlığında da rast gəlmək olur.Lerikin Cəngəmiran kəndindəki "Xəlifə Zəkəriyyə"qəbirsanlığındakı qəbirləri öz dəfn etmə xüsusiyyətinə görə 5 yerə bölmək olar.

*1.Hündürlüyü 40sm olan və üst hissəsi üç dairəvi oval formasında çıxıntısı olan və üzərində müxtəlif astronomik işarələr olan qəbir daşları.*
*2.Hündürlüyü 40 sm olan və aşağı hissəsi dairəvi və günəşi əks etdirən dişli dairə formasında olan və üst hissəsi isə daha az dairə formasında olan orta əsr Səfəvi-Sufi qəbirlərinə oxşar qəbir daşları.*
*3.Hündürlüyü 80sm olan və üzərində saçaqlı günəş və ortasında Davud peyğəmbərin 6 güşəli ulduzunu xatırladan altıgüşəli ulduz işarəli qəbir daşları.*
*4.Hündürlüyü 30 sm olan və üzərində müxtəlif cür döyüş silahlarının şəkli olan qoç fiqurlu qəbirdaşları.*
*5.Hündürlüyü 20sm olan və dairəli formada insan başlı qəbir daşları. Bu tip qəbir daşları digər qədim qəbiristanlıqlarda rast gəlinmir.*

Beləki bu qəbir daşlarının heç birinin üzərində ərəb yazıları yoxdur və bu qəbir daşlarının hamısı qiblənin əksinədir.Bu da bu qəbirlərin islamaqədərki dövürə aid qəbirlər olduğunu göstərir. Bundan əlavə bu qəbir daşları üzərində Əhəməni və Sasanilər dövürlərinə aid və zərdüştlik dininin simvolu olan od işarələri olmadığından bu ərazilərin bu iki imperiyanı siyasi təsirinin az olmasını göstərir.Çünki bu qəbiristanlıqlarda bu iki imperiyanın mədəniyyətinin təsirlərinə rast gəlinmir.Qəbir daşlarının üzərindəki, qılınc, xəncər vəqayçı təsfirləri isə bu şəxslərin qoyunçu tayfalardan olan döyüşçü olmasına işarədir. Çünki, qayçı döyüş silahı deyil.Qayçı qoyun yununu qırxmaq üçün istifadə

olunan alətdir. Bu tip qəbirlərə biz Bobogil və Orand qədim qəbirsanlıqlarında da rast gəlirik.Qəbir daşlarının üzərində, yuxarı hissədə üç ovalın olması və bu ovalların işərisində kainatı və günəşi əks etdirən işarələrin olması bu qəbir daşlarının erkən dəmir dövrünə aid olduğunu sübut edir. Çünki səma cisimlərinə sitayiş məhz erkən dəmir dövrndə olmuşdur.Bundan əlavə qəbir daşlarının üzərində Davud peyğəmbərin altı güşəli ulduzunu xatırladan ulduzun olması burada daha bir qədim dini inanca nəvaxtsa sitayiş edilməsindən xəbər verir.Şayəd bu tip işarəli qəbir daşları həm Bobogil qəbiristanlığında,həm Bobo Rəhmon qəbirsanlığında və ümumiyyətlə cənub bölgəsinin bütün qədim qəbirsanlıqlarında rast gəlinir.Tarixçilərin bəziləri bu qoç fiqurlu qəbir daşlarını Ağqoyunlu və Qaraqoyunlu tayfalarına aid edir. Bu cür qəbir daşları Orand kəndindəki qədim qəbirsanlıqda olduğu kimi onlarıda Ağqoyunlulara aid edirlər. Lakin tarixşi Araz Qurbanov və tədqiqatçı Həşim Kəlbiyev bu qoç fiqurlu qəbir daşlarının Ağqoyunlu tayfalarına aid edilməsi fikrini düzgün hesab etmirlər.Tədqiqatçı H.Kəlbiyev qeyd edir ki,bu qoç fiqurlu qəbir daşlarını Ağqoyunlu və Qaraqoyunlularla bağlamaq, onların tarixini aşağılamaq deməkdir.Çünki, Ağqoyunlu və Qaraqoyunlu tarixi dövründə, yəni XV əsrdə yazı mədəniyyəti var idi və ədəbi əsərlər yaranırdı. Necə ola bilərdi ki, Ağqoyunlu və Qaraqoyunlu sərkərdələri, hökümdarlarının qəbri üstünə sənətkarların qoç heykəli qoyub və heç bir yazı yazmaması həqiqətdən uzaqdır". Azərbaycan tarixinin araşdırılmasına əsaslı dəlillər verən bu cür abidələr daha qədim hesab olunur.Bu qoç heykəlləri əsasən maldar və qoyunçu tayfalarına aiddir.Şübhəsiz ki, qoyunçuluqla məşğul olan şəxslər qoyunçuluqdan əlavə ayrı peşəyə və sənətə malik olmuşlar.Ona görə də bu qoç heykəllərinin bəzilərinin böyürlərində müxtəlif cür əmək alətləri, xüsusilə silahlar təsfir edilmişdir. Bu qəbir daşları üzərində qılınc, nizə, qəmə və qayçı kimi müxtəlif cür əmək alətləri və silah təsvirlərinə rast gəlinir". Tarixçilər ərazidəki qoç fiqurlu və insan başına bənzər heykəllərin

əksəriyyətini son tunc və erkən dəmir dövrünə aid edirlər.Bu qəbirlərin əksəriyyəti ikikameralıdır və burada lazımınca tədqiqat aparılmadığından bu qəbirlər haqqında qaneedici nəticəyə varılmayıb.Lakin onların arasında Səfəvi Sufi qəbir daşlarına da rast gəlmək olur. Səfəvilərə aid qəbir daşlarına Bobogil,Orand qəbirsanlığı,Baba Rəhmon və Astaradakı Maşxan qəbiristanında da rast gəlmək olur.Cəngəmirandakı"Xəlifə Zəkəriyyə" qəbiristanlığında vaxtı ilə 10-dan çox bu tipdə qəbir daşı 1 olub, amma onlardan bir neçəsi bu günümüzə qədər qorunub saxlanılıb. Çünki, o zaman belə şayə gəzirdi ki, guya bu qoç fiqurlarının içərisində qızıl var və elə bu səbəbdən də yerli əhali tərəfindən bu qoç fiqurları ortadan sındırılaraq bərbad hala salınmışdır.Bundan əlavə bu qoç fiqurlu qəbir daşları o zamanlar sovet əsgərləri tərəfindən təlim zamanı məhv edilmişdir.Lakin yerli əhalinin etirazından sonra bu məsələ öz həllini tapmışdır. 2011-ci ildə Nazirlər Kabinetinin qərarı ilə Cəngəmiran kəndindəki bu abidələr xüsusi muhafizə altına alınıb.



Şəkil. Cəngəmiran qədim qəbiristanlığında olan qədim məzar daşları.

# II FƏSİL LERİK ZİYARƏTGAHLARI

## 1.Lerik abidələrinin sxem cədvəli

| № | Abidənin adı | ıver-ar № | Sistem koddu | Abidənin tipi | Ucaldılma tarixi | Ünvan |
|---|---|---|---|---|---|---|
| Ölkə əhəmiyyətli arxeoloji abidələr – 25 ədəd | | | | | | |
| 1 | Molla Abdulla bulağı” | 942 | AJA 004565 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Orta əsrlər | Qazaxyolçu kəndi |
| 2 | Qalaça | 943 | AJA 004566 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Orta əsrlər | Qazaxyolçu kəndi |
| 3 | Daş qutusu nekropolu | 1465 | AJA 001487 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Son tunc, ilk dəmir | Lənkəran-Lerik yolunnun üstündə |
| 4 | Coni daş qutusu nekropolu | 1466 | AJA 001488 | Ölkə əhəmiyyətli arxeoloji abidə | E. ə. XII-X əsrlər | Cəngəmiran kəndi |
| 5 | Hovari daş qutu nekropolu | 1467 | AJA 001489 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Son tunc-ilk dəmir | Haovari kəndi |
| 6 | Andurma yaşayış yeri | 1468 | AJA 001490 | Ölkə əhəmiyyətli arxeoloji abidə | XIII-XV əsrlər | Andurma kəndi |
| 7 | Razqov yaşayış yeri | 1469 | AJA 001491 | Ölkə əhəmiyyətli arxeoloji abidə | XIII-XV əsrlər | Razqov kəndi |
| 8 | Yaşayış yeri | 1470 | AJA 001492 | Ölkə əhəmiyyətli arxeoloji abidə | XIII-XIV əsrlər | Cəvanşir kəndi |
| 9 | Nekropol | 1471 | AJA 001493 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Son tunc-ilk dəmir | Coni kəndi |
| 10 | Mondigah yaşayış yeri | 1472 | AJA 001494 | Ölkə əhəmiyyətli arxeoloji abidə | XIII-XIV əsrlər | Mondigah kəndi |
| 11 | Türbə | 1473 | AJA | Ölkə əhəmiy- | Antik | Noda kəndi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | 001495 | yətli arxeoloji abidə | dövr | |
| 12 | **Noda yaşayış yeri** | 1474 | AJA 001496 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XII-XVI əsrlər | Noda kəndi |
| 13 | **Küp qəbirləri nekropolu** | 1475 | AJA 001497 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Antik dövr | Şingədülan kəndi |
| 14 | **Mistan yaşayış yeri** | 1476 | AJA 001498 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XV-XVI əsrlər | Mistan kəndi |
| 15 | **Mistan qədim qəbiristanlığı** | 1476 | AJA 001498 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XV-XVI əsrlər | Mistan kəndi |
| 16 | **Mistan daş qutu nekropolu** | 1477 | AJA 001499 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Son tunc-ilk dəmir | Mistan kəndi |
| 17 | **Qalaça yaşayış yeri** | 1478 | AJA 001500 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Son tunc-ilk dəmir | Mistan kəndi |
| 18 | **Mistan meydan kurqanları** | 1479 | AJA 001501 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Son tunc-ilk dəmir | Mistan kəndi |
| 19 | **Hiveri nekropolu** | 1480 | AJA 001502 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Son tunc-ilk dəmir | Qosmalyan kəndi |
| 20 | **Qosmalyan yaşayış yeri** | 1481 | AJA 001503 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Son tunc-ilk dəmir | Qosmalyan kəndi |
| 21 | **Qızyurdu yaşayış yeri** | 1482 | AJA 001504 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Son tunc-ilk dəmir | Qosmalyan kəndi |
| 22 | **Nekropol** | 1483 | AJA 001505 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Son tunc-ilk dəmir | Veri kəndi |
| 23 | **Hovli nekropolu** | 1484 | AJA 001506 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Son tunc-ilk dəmir | Bürsülüm kəndi |
| 24 | **Baba Piəli qəbiristanlığı** | 1485 | AJA 001507 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XV əsr | Ordaxıl kəndindən 3 km. şərqdə |
| 25 | **Bobgil** | 1486 | AJA00150 | Ölkə əhəmiy- | Son | Lənkəran çayının |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **nekropolu** | | 8 | yətli arxeoloji abidə | tunc-ilk dəmir | sol sahilində |
| **26** | **Kürdəsər torpaq qəbirləri** | 1487 | AJA 001509 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Antik dövr | Kürdəsər kəndi |
| **27** | **Kürdəsər yaşayış yeri** | 1488 | AJA 001509 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Antik dövr-orta əsrlər | Kürdəsər kəndi |
| **28** | **İlantəpə yaşayış yeri** | 1489 | AJA 001511 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XII-XVI əsrlər | Nüvədi kəndi |
| **29** | **Cındırırtəpə küp qəbirləri nekropolu** | 1490 | AJA 001512 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Antik dövr | Kürəvüd kəndi |
| **30** | **Hambaxan yaşayış yeri** | 1491 | AJA 001513 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Antik dövr | Kirəvüd kəndi |
| **31** | **Qaravedi daş qutu nekropolu** | 1492 | AJA 001514 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Tunc dövrü, X-XVI əsrlər | Lomar çayının sol sahilində |
| **32** | **Qışlaq yaşayış yeri** | 1493 | AJA 001515 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | X-XVI əsrlər | Lomar çayının sol sahilində |
| **33** | **Tüli daş qutu nekropolu** | 1494 | AJA 001516 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Son tunc, ilk dəmir | Tüli kəndi |
| **34** | **Xəlifə yaşayış yeri** | 1495 | AJA 001517 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | X-XIII əsrlər | Xəlifəkənd |
| **35** | **Xanbaulaq qəbiristanlığı** | 1496 | AJA 001518 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Son tunc, ilk dəmir | Köhnə Orand kəndi |
| **36** | **Köhnə Orand daş qutu nekropolu** | 1497 | AJA 001519 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | E. ə. V-II əsrlər | Köhnə Orand kəndi |
| **37** | **Əvilə yaşayış yeri** | 1498 | AJA 001520 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XIII-XIV | Əvilə kəndi |
| **38** | **Barzavu yaşayş yeri** | 1499 | AJA 001521 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XIII-XIV | Barzavu kəndi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **39** | **Buzeyir mağarası** | 1500 | AJA 001522 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Daş dövrü | Buzeyir kəndi |
| **40** | **Hamarat daş qutu nekropolu** | 1501 | AJA 001523 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Son tunc, ilk dəmir | Hamarat kəndi |
| **41** | **Zevnə daş qutu nekropolu** | 1502 | AJA 001524 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Antik dövr | Zevnə kəndi |
| **42** | **Kadux kəndi** | 1503 | AJA 001525 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XV-XVI əsr | Aşağı-Kadux kəndi |
| **43** | **Bırkandül yaşayış yeri** | 1504 | AJA 001526 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Antik dövr | Bırkandül kəndi |
| **44** | **Küp qəbirləri nekropolu** | 1505 | AJA 001527 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | E. ə. I əsr-e. I əsr | Bırkandül kəndi |
| **45** | **Bırkandül torpaq qəbirləri** | 1506 | AJA 001528 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Antik dövr | Bırkandül kəndi |
| **Yerli əhəmiyyətli memarlıq abidəsi – 27 ədəd** | | | | | | |
| **1** | **Qala qalıqları** | 4765 | AJA 004567 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Loda kəndi |
| **2** | **Qəqə Hüseyn türbəsi** | 4766 | AJA 004567 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Şivlə kəndi |
| **3** | **Qəəbiristanlıq** | 4767 | AJA0045 69 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Ordahal kəndi |
| **4** | **Baba İsa türbəsi** | 4768 | AJA 004570 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | XVII əsr | Mondigah kəndi |
| **5** | **Baba Məhəmməd türbəsi** | 4769 | AJA 004571 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Coni kəndi |
| **6** | **Xoca Seyid türbəsi** | 4770 | AJA 004572 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Xanəgah kəndi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **6** | **Məscid** | 4771 | AJA 004573 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | XIX əsr | Lüləkəran kəndi |
| **8** | **Baba Məhəmməd türbəsi** | 4772 | AJA 004574 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Soru kəndi |
| **9** | **Baba Həsən türbəsi** | 4773 | AJA 004575 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Soru kəndi |
| **10** | **Şıx Cənnət türbəsi** | 4774 | AJA 004576 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Ker kəndi |
| **11** | **Bobogil türbəsi** | 4775 | AJA 004577 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | XVIII əsr | Andurma kəndi |
| **12** | **İmam türbəsi** | 4776 | AJA 004578 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Barzavu kəndi |
| **13** | **Pir Yusif türbəsi** | 4777 | AJA 004579 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Kekoni kəndi |
| **14** | **Baba Peyda türbəsi** | 4778 | AJA 004580 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Orand kəndi |
| **15** | **Kəla türbəsi** | 4779 | AJA0045 81 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | XVIII əsr | Orand kəndi |
| **16** | **Oğlan qalası** | 4780 | AJA 004582 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Orand kəndinin 2 kilometrliyində |
| **17** | **Şeyx Səla türbəsi** | 4781 | AJA 004583 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Qışlaq kəndi |
| **18** | **Baxi Ziyad türbəsi** | 4782 | AJA 004584 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Razaov kənddi |
| **19** | **Zəkəriyyə türvəsi** | 4783 | AJA 004585 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Cəngəmiran kəndi |
| **20** | **Cındır türbəsi** | 4784 | AJA 004586 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | XVIII əsr | Davardibi kəndi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **21** | **Cabir türbəsi** | 4785 | AJA 004587 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Lerik şəhərinin cənubunda |
| **22** | **Günədib türbəsi** | 4786 | AJA 004588 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Çayrud kəndi |
| **23** | **Türbə** | 4787 | AJA 004589 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Çayrud kəndi |
| **24** | **Qız qalası** | 4788 | AJA 004590 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Şingədülən kəndi |
| **25** | **Baba türbəsi** | 4789 | AJA 004590 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Babagil kəndi |
| **26** | **Türbə** | 4790 | AJA 004591 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Qəqoy kəndi |
| **27** | **Çakara türbəsi** | 4791 | AJA 004592 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | XIX əsr | Azərbaycan kəndi |
| | | | **Yerli əhəmiyyətli arxeoloji abidə - 26 ədəd** | | | |
| **1** | **“Fağır Əhməd”- köhnə qəbiristanlığı** | 5926 | AJA 005728 | Yerli əhəmiyyətli arxeoloji abidə | Orta əsrlər | Lerik şəhəri |
| **2** | **“Dədə Məqsud“ köhnə qəbiristanlığı** | 5927 | AJA 005729 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Lerik şəhəri |
| **3** | **Cobir yaşayış yeri** | 5928 | AJA 005730 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Lerik şəhərindən 1, 5 km cənubda |
| **4** | **“Xəlifə Zəkəriyyə” qəbiristanlığı** | 5929 | AJA 005731 | Yerli əhəmiyyətli arxeoloji abidə | Orta əsrlər | Lerik şəhərindən 2 km cənubda, Cən-gəmiran kəndində |
| **5** | **Cəngəmiran yaşayış yeri** | 5930 | AJA 005732 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XV-XVII əsrlər | Cəngəmiran kəndi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 6 | **Coni yaşzayış yeri** | 5931 | AJA 005733 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XV-XVII əsrlər | Cəngəmiran kəndi |
| 7 | **“Seyid” qəbiristanlığı** | 5932 | AJA 005734 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Ambu kəndi |
| 8 | **Hüseynvənd Qabağı-köhnə qəbiristanlıq** | 5933 | AJA 005735 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Kələxan kəndinin yaxınlığında |
| 9 | **Köhnə qəbiristanlıq** | 5934 | AJA 005736 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Hamarat kəndi yaxınlığında |
| 10 | **Köhnə qəbiristanlıq** | 5935 | AJA 005737 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Gerabin kəndi |
| 11 | **Köhnə qəbiristanlıq** | 5936 | AJA 005738 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Hoveri kəndo |
| 12 | **Boboyi türbəsi** | 5937 | AJA 005739 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XVIII əsr | Andurma kəndindən 500 metr şimalda |
| 13 | **Boboyi qəbiristanlığı** | 5937 | AJA 005739 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XVIII əsr | Andurma kəndindən 500 metr şimalda |
| 14 | **Şeyx Cənnət qəbiristanlığı** | 5938 | AJA 005740 | Yerli əhəmiyyətli arxeoloji abidə | XIX əsr | Razqov kəndi |
| 15 | **Seyid Davud qəbiristanlığı** | 5939 | AJA 005741 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XVII əsr | Cəmanşair kəndi |
| 16 | **Vıstən yaşayış yeri** | 5940 | AJA 005742 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsr | Vistən kəndi |
| 17 | **Baba Məhəmməd qəbiristanlığı** | 5941 | AJA 005743 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XVII əsr | Vistən kəndindən 500 metr şərqdə |
| 18 | **Baba İsa qəbiristanlığı** | 5942 | AJA 005744 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XVIII əsr | Mondigah kəndindən 50 m cənubda |
| 19 | **Soru yaşayış yeri** | 5943 | AJA 005745 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XIV-XVII əsrlər | Soru kəndi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **20** | **Orand yaşayış yeri** | 5944 | AJA 005746 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XIV-XVII əsrlər | Köhnə Orand kəndi |
| **21** | **Lemarud yaşayış yeri** | 5945 | AJA 005747 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XIV-XVII əsrlər | Lemarud kəndi |
| **22** | **Xanəgah yaşayış yeri** | 5946 | AJA 005748 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XIV-XVII əsrlər | Xanəgah kəndi |
| **23** | **Kekoni yaşayış yeri** | 5947 | AJA 005749 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XIV-XVI əsrlər | Kekoni kəndi |
| **24** | **Əliabad yaşayış yeri** | 5948 | AJA 005750 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XIV-XVIII əsrlər | Əliabad kəndi |
| **25** | **Buzeyir yaşayış yeri** | 5949 | AJA 005751 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XIV-XVI əsrlər | Buzeyir kəndi |
| **26** | **Balabəyi yaşayış yeri** | 5950 | AJA 005752 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XIV-XVI əsrlər | Balabəyi kəndi |
| **Yerli əhəmiyyətli Xalq-daş heykəltəraşlıq abidəsi – 78 ədəd** | | | | | | |
| **1** | **Daş qoş fiquru** | 6180 | AJA 005982 | Yerli əhəmiy-yətli Xalqdaş-heykəltəraşlıq abidəsi | | Razqov kəndi, Bəhri Siyab türbəsi |
| **2** | **Daş qoş fiquru** | 6181 | AJA 005983 | Yerli əhəmiy-yətli Xalqdaş-heykəltə-raşlıq abidəsi | | Razqov kəndi, Bəhri Siyab türbəsi |
| **3** | **Daş qoş fiquru** | 6182 | AJA 005984 | Yerli əhəmiy-yətli Xalqdaş-heykəltə-raşlıq abidəsi | XIX əsr | Ker kəndi, Şeyx Cənnət türbəsi |
| **4** | **Daş qoş fiquru** | 6283 | AJA 005985 | Yerli əhəmiy-yətli Xal qdaş-heykəltə-raşlıq abidəsi | XIX əsr | Ker kəndi, Şeyx Cənnət türbəsi |
| **5** | **Daş qoş fiquru** | 6284 | AJA 005986 | Yerli əhəmiy-yətli Xalq daş-heykəltə-raşlıq | XIX əsr | Ker kəndi, Şeyx Cənnət türbəsi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | abidəsi | | |
| 6 | **Daş qoş fiquru** | 6185 | AJA 005987 | Yerli əhəmiyyətli Xalq daşheykəltəraşlıq abidəsi | XIX əsr | Ker kəndi, Şeyx Cənnət qəbiristanlığı |
| 7 | **Daş qoş fiquru** | 6186 | AJA 005988 | Yerli əhəmiyyətli Xalq daşheykəltəraşlıq abidəsi | XVIII əsr | Cəngəmiran kəndindən 1 km aralı, Xəlifə Zəkəriyyə qəbiristanlığı |
| 8 | **Daş qoş fiquru** | 6187 | AJA 005989 | Yerli əhəmiyyətli Xalq daşheykəltəraşlıq abidəsi | XVIII əsr | Cəngəmiran kəndindən 1 km aralı, Xəlifə Zəkəriyyə qəbiristanlığı |
| 9 | **Daş qoş fiquru** | 6188 | AJA 005990 | Yerli əhəmiyyətli Xalq daşheykəltəraşlıq abidəsi | XVIII əsr | Cəngəmiran kəndindən 1 km aralı, Xəlifə Zəkəriyyə qəbiristanlığı |
| 10 | **Daş qoş fiquru** | 6189 | AJA 005991 | Yerli əhəmiyyətli Xalq daşheykəltəraşlıq abidəsi | XVIII əsr | Cəngəmiran kəndindən 1 km aralı, Xəlifə Zəkəriyyə qəbiristanlığı |
| 11 | **Daş qoş fiquru** | 6190 | AJA 005992 | Yerli əhəmiyyətli Xalq daşheykəltəraşlıq abidəsi | XVIII əsr | Cəngəmiran kəndindən 1 km aralı, Xəlifə Zəkəriyyə qəbiristanlığı |
| 12 | **Sənduqə** | 6191 | AJA 005993 | Yerli əhəmiyyətli Xalq daşheykəltəraşlıq abidəsi | | Cəngəmiran kəndindən 1 km aralı, Xəlifə Zəkəriyyə qəbiristanlığı |
| 13 | **İnsan başının daş heykəli** | 6192 | AJA 005994 | Yerli əhəmiyyətli Xalq daşheykəltəraşlıq abidəsi | | Cəngəmiran kəndindən 1 km aralı, Xəlifə Zəkəriyyə qəbiristanlığı |
| 14 | **Daş qoç fiquru** | 6193 | AJA 005995 | Yerli əhəmiyyətli Xalq | XVIII əsr | Coni kəndi, Bobo Həsən türbəsi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | daşheykəltə-raşlıq abidəsi | | |
| 15 | **Daş qoç fiquru** | 6194 | AJA 005996 | Yerli əhamiyyətli Xalq daşheykəltə-raşlıq abidəsi | XVIII əsr | Coni kəndi, Bobo Həsən türbəsi |
| 16 | **Daş qoç fiquru** | 6195 | AJA 005997 | Yerli əhamiyyətli Xalq daşheykəltə-raşlıq abidəsi | XVIII əsr | Coni kəndi Bobo Məhəmməd terbəsi |
| 17 | **Daş qoç fiquru** | 6196 | AJA 005998 | Yerli əhamiyyətli Xalq daşheykəltə-raşlıq abidəsi | XVIII əsr | Coni kəndi Bobo Məhəmməd terbəsi |
| 18 | **Daş qoç fiquru** | 6197 | AJA 005999 | Yerli əhamiyyətli Xalq daşheykəltə-raşlıq abidəsi | XVIII əsr | Mondigah kən-dindən 500 metr cənubda, Baba İsa qəbiristanlığı |
| 19 | **Daş qoç fiquru** | 6198 | AJA 006000 | Yerli əhamiyyətli Xalq daşheykəltə-raşlıq abidəsi | XVIII əsr | Mondigah kən-dindən 500 metr cənubda, Baba İsa qəbiristanlığı |
| 20 | **Daş qoç fiquru** | 6199 | AJA 006001 | Yerli əhamiyyətli Xalq daşheykəltə-raşlıq abidəsi | XVIII əsr | Mondigah kən-dindən 500 metr cənubda, Babaİsa qəbiristanlığı |
| 21 | **İnsan başının daş heykəli** | 6200 | AJA 006002 | Yerli əhamiyyətli Xalq daşheykəltə-raşlıq abidəsi | XVIII əsr | Mondigah kən-dindən 500 metr cənubda, Baba İsa qəbiristanlığı |
| 22 | **Daş qoç fiquru** | 6201 | AJA 006003 | Yerli əhamiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Noda kənd qəbiristanlığı |
| 23 | **Daş qoç fiquru** | 6202 | AJA 006004 | Yerli əhamiyyətli Xalq daş-heykəltə-raşlıq abidəsi | | Noda kənd qəbiristanlığı |
| 24 | **Daş at fiquru** | 6203 | AJA 006005 | Yerli əhamiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Noda kənd qəbiristanlığı |
| 25 | **Daş at fiquru** | 6204 | AJA | Yerli əhamiy- | | Ordahal |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | 006006 | yətli Xalq daş-heykəltəraşlıq abidəsi | | kəndindən 1 km. aralı, baba Peyda türbəsi |
| **26** | **Daş at fiquru** | 6205 | AJA 006007 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Ordahal kəndindən 1 km. aralı, Baba Peyda türbəsi |
| **27** | **Daş qoç fiquru** | 6206 | AJA 006008 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Şonaçola kəndi |
| **28** | **Daş qoç fiquru** | 6207 | AJA 006009 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Əliabad kəndindən 2 km aralı, qəbiristanlıq |
| **29** | **Daş qoç fiquru** | 6208 | AJA 006010 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Əliabad kəndindən 2 km aralı, qəbiristanlıq |
| **30** | **İnsan başının daş heykəli** | 6209 | AJA 006011 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Əliabad kəndindən 2 km aralı, qəbiristanlıq |
| **31** | **İnsan başının daş heykəli** | 6210 | AJA 006012 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Əliabad kəndindən 2 km aralı, qəbiristanlıq |
| **32** | **Daş qoç fiquru** | 6211 | AJA 006013 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Nüvədi kəndindən 1km aralı, qəbiristanlıq |
| **33** | **Daş qoç fiquru** | 6212 | AJA 006014 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Nüvədi kəndindən 1km aralı, qəbiristanlıq |
| **34** | **Daş qoç fiquru** | 6213 | AJA 006015 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Nüvədi kəndindən 1km aralı, qəbiristanlıq |
| **35** | **İnsan başının daş heykəli** | 6214 | AJA 006016 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Nüvədi kəndindən 1km aralı, qəbiristanlıq |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **36** | **Daş qoç fiquru** | 6215 | AJA 006017 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Soru kənd qəbiristanlığı |
| **37** | **Daş qoç fiquru** | 6216 | AJA 006018 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Vıstən kənd qəbiristanlığı |
| **38** | **Daş qoç fiquru** | 6217 | AJA 006019 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Vıstən kənd qəbiristanlığı |
| **39** | **İnsan başının daş heykəli** | 6218 | AJA 006020 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Vıstən kənd qəbiristanlığı |
| **40** | **İnsan başının daş heykəli** | 6219 | AJA 006021 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Vıstən kənd qəbiristanlığı |
| **41** | **Daş qoç fiquru** | 6220 | AJA 006022 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Camanşair kənd qəbiristanlığı |
| **42** | **Daş qoç fiquru** | 6221 | AJA 006023 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Əvilə kənd qəbiristanlığı |
| **43** | **Daş qoç fiquru** | 6222 | AJA 006024 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Bılaband kəndindən 500 m aralı, qəbiristanlıq |
| **44** | **Daş qoç fiquru** | 6223 | AJA 006025 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Amburdərə kəndi, Bibiypni türbəsi |
| **45** | **Daş qoç fiquru** | 6224 | AJA 006026 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Lərmərud kənd qəbiristanlığı |
| **46** | **Daş qoç fiquru** | 6225 | AJA 006027 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq | | Lərmərud kənd qəbiristanlığı |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | abidəsi | | |
| **47** | **Daş qoç fiquru** | 6226 | AJA 006028 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Lərmərud kənd qəbiristanlığı |
| **48** | **Daş qoç fiquru** | 6227 | AJA 006029 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Lərmərud kənd qəbiristanlığı |
| **49** | **Daş qoç fiquru** | 6228 | AJA 006030 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Lərmərud kənd qəbiristanlığı |
| **50** | **Daş qoç fiquru** | 6229 | AJA 006031 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Şingəldülan kənd qəbiristanlığı |
| **51** | **Daş qoç fiquru** | 6230 | AJA 006032 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Şingəldülan kənd qəbiristanlığı |
| **53** | **Daş qoç fiquru** | 6231 | AJA 006033 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Mastail kəndi, Piri Baba türbəsi |
| **54** | **Daş qoç fiquru** | 6232 | AJA 006034 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Mastail kəndi, Piri Baba türbəsi |
| **55** | **Daş qoç fiquru** | 6233 | AJA 006035 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Barzavu kəndindən 1km. aralı, İmam türbəsi |
| **56** | **Daş qoç fiquru** | 6234 | AJA 006036 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Barzavu kəndindən 1km. aralı, İmam türbəsi |
| **57** | **Daş qoç fiquru** | 6235 | AJA 006037 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Kekoni kəndindən 1km. aralı, Piri Yusif türbəsi |
| **58** | **Daş qoç fiquru** | 6236 | AJA 006038 | Yerli əhəmiyyətli Xalq daş- | | Buruq kənd qəbiristanlığı |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | heykəltəraşlıq abidəsi | | |
| **59** | **Daş qoç fiquru** | 6237 | AJA 006039 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Qışlaq kəndi, Şeyx Saleh türbəsi |
| **60** | **Daş qoç fiquru** | 6238 | AJA 006040 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Qışlaq kəndi, Şeyx Saleh türbəsi |
| **61** | **Daş qoç fiquru** | 6239 | AJA 006041 | Yerli əhəmiyyətli Xalq daş-heykəltə-raşlıq abidəsi | | Qışlaq kəndi, Şeyx Saleh türbəsi |
| **62** | **Daş qoç fiquru** | 6240 | AJA 006042 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Qışlaq kəndi, Şeyx Saleh türbəsi |
| **63** | **Daş qoç fiquru** | 6241 | AJA 006043 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Orand kəndi, Kəla türbəsi |
| **64** | **Daş qoç fiquru** | 6242 | AJA 006044 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Orand kəndi, Kəla türbəsi |
| **65** | **Daş qoç fiquru** | 6243 | AJA 006045 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Orand kəndi, Kəla türbəsi |
| **66** | **Daş qoç fiquru** | 6244 | AJA 006046 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Nürəvud kənd qəbibiristanlığı |
| **67** | **Daş qoç fiquru** | 6245 | AJA 006047 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Nürəvud kənd qəbibiristanlığı |
| **68** | **Daş qoç fiquru** | 6246 | AJA 006048 | Yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Nücü kənd qəbiristanlığı |
| **69** | **Daş qoç fiquru** | 6247 | AJA | Yerli əhəmiy- | | Nücü kənd |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | 006049 | yətli Xalq daş-heykəltəraşlıq abidəsi | | qəbiristanlığı |
| **70** | **Daş qoç fiquru** | 6248 | AJA 006050 | Yerli əhəmiy-yətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Azərbijon kəndi, Çərəkkə türbəsi |
| **71** | **Daş qoç fiquru** | 6249 | AJA 006051 | Yerli əhəmiy-yətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Davardibi kəndi, Cındır türbəsi |
| **72** | **Daş qoç fiquru** | 6250 | AJA 006052 | Yerli əhəmiy-yətli Xalq daş-heykəltə-raşlıq abidəsi | | Davardibi kəndi, Cındır türbəsi |
| **73** | **Daş qoç fiquru** | 6251 | AJA 006053 | Yerli əhəmiy-yətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Xanəgah kəndi, Hacı Seyid türbəsi |
| **74** | **İnsan başının daş heykəli** | 6252 | AJA 006054 | Yerli əhəmiy-yətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Xanəgah kəndi, Hacı Seyid türbəsi |
| **75** | **İnsan başının daş heykəli** | 6253 | AJA 006055 | Yerli əhəmiy-yətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Xanəgah kəndi, Hacı Seyid türbəsi |
| **76** | **İnsan başının daş heykəli** | 6254 | AJA 006056 | Yerli əhəmiy-yətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Kaqoy kənd qəbiristanlığı |
| **77** | **İnsan başının daş heykəli** | 6255 | AJA 00607 | Yerli əhəmiy-yətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Perzəküjə kənd qəbiristanlığı |
| **78** | **İnsan başının daş heykəli** | 6256 | AJA 00608 | Yerli əhəmiy-yətli Xalq daş-heykəltəraşlıq abidəsi | | Perzəküjə kənd qəbiristanlığı |
| **175** | **Daş qoç fiquru** | 6257 | AJA 00609 | | | Durqan kənd qəbiristanlığı |

## 2. Mağaralar(2 ədəd)

**1.Buzeyir mağarası.**Buzeyir mağarası ölkə əhəmiyyətli arxeoloji abidədir və Mağara Lerik rayonu ərazisində Zuvand çayının sol sahilində,Buzeyir kəndinin şərqində yerləşir.Mağaranın tarixi Daş dövrünə təsadüf edir. Belə ki, Buzeyir mağarası öz qədimliyinə görə dünyada altıncı yerdə durur. Mağara kəndin yaxınlığında olduğu üçün ona Buzeyir adı verilmişdir.Buzeyir kəndi dağın döşündə, mağara isə Talış dağlarının ən yüksək zirvəsində olub, dəniz səviyyəsindən 1640 metr yüksəklikdə yerləşir.Buzeyir mağarasında aparılan arxeoloji qazıntılar zamanı beş təbəqə qeydə alınmışdır.Üst təbəqələrdən orta əsrlər və tunc dövrlərinə aid maddi mədəniyyət qalıqları tapılmışdır.Aşağı təbəqələrdən isə daş məmulatı və ovlanmış heyvan sümükləri aşkar olunmuşdur.Daş məmulatının əsas hissəsini qaşov tipli alətlər və itiuclular təşkil edir.Buzeyir qədim insan düşərgəsindən aşkar olunmuş daş məmulatının texniki və tipoloji xüsusiyyətlərinə əsasən onların Mustye-Son Aşel dövrlərində hazırlanmasını söyləmək olur. Buzeyir mağarası Lənkəran zonasında paleolit dövrünə aid tapılmış ilk qədim insan düşərgəsidir.Əgər indiyə kimi bu ərazidə insanların yaşaması 10-15 min il bundan əvvələ aid edilirdisə, yeni tapıntı paleolit dövrü adamlarının hələ 80-90 min il bundan əvvəl burada yaşadıqlarını göstərir.*(Bax.İqrar Əliyev.Azərbaycan tarixi.VII clddə,I cild.Bakı-2007.səh. 55).* Buzeyir mağarasında aparılan arxeoloji qazıntılar zamanı 63 ədəd daş məmulatı tapmışlar.Daş məmulatı içərisində diskşəkilli nüvələr,lavallua itiucluları,sadə bir işlək ağızlı qaşovlar, bir işlək ağızlı qabarıq qaşov,qəlpələr və lövhələr qeydə alınmışdır.Buzeyir düşərgəsinin daş məmulatı əsasən çamaq,dəvəgözü andezit daşlardan hazırlanmışdır. Düşərgənin daş məmulıatı içərisində əsas yeri levallua itiucluları və qaşov tipli alətlər tutur.*(Bax: Əsədulla Cəfərov"Qarabağın Paleolit düşərgələri.Bakı-2017.s.18-19).*Levallua itiucluları əsasən

**37.Mobətə türbəsi**(Lerik-Lənkəran arası).Mobətə türbəsi yerli əhəmityyətli türbədir və Lerik-Lənkəran rayonları arasındakı ərazidə yerləşir.Bura həm yerli, həm də ətraf kəndlərin əhalisi əvvəllər ziyarətə gələrdirlər.İnsanlar burnı öz iman yeri hesab edib pənah gətirmişlər.Əsaən yerli sakinlər tərəfindən ziyarət olunur və az ziyarət olunan türbələrdəndir.

**38.Nokoman türbəsi**(Zövnə kəndi).Nokoman türbəsi Lerik rayonunun Zövnə kəndi ərazisində yerləşir. Türbənin tarixi orta əsrlərə təsadüf edir.Bu türbə camaatın inam yeridir və deyilənlərə görə Babagilin qardaşı burada dəfn edilib.

**39.Pir-e Xalisə**(Hücü kəndi).Pir-e Xalisə yerli əhəmiyyətli tikilidir və Lerik rayonunun Tikəband ərazi vahidliyinə daxil olan Hücü qəbiristanlığının ərazisində yerləşir.Hücü kəndi ərazisində məscid olmadığından yerli sakinlər qədim zamanlardan bu ocağa

ibadət etmək üçün gəlirlər. Pirin yaranma tarixi haqqında fikirlər müxtəlifdir. Bəziləri bu piri IX əsrə aid edir,bəziləri isə VII əsrə aid edir. Beləki, kənd sakini İslam Şabanovun dediklərinə görə bu prin tikilmə tarixi VII əsrə aiddir. Əvvəllər baxımsızlıq ucubatından yararsız hala düşən pir 2009-2011-ci illər ərzində kəndin xeyriyyəçi adamlarının şəxsi vəsaiti hesabına təmir edilmişdir.

**40.Pir-e Mistan**(Diqovdərə kəndi).Pir-e Mistan türbəsi yerli əhəmiyyətli ziyarətgahdır və Lerik rayonunun Diqovdərə kəndi ərazisində yerləşir. Bu ocağı tarixi ilkin orta əsrlərə gedib çıxır və deyilənlərə görə bu ocaq İsmail adlı bir ağır imamzadəyə məxsusdur.Deyilənlərə görə bu ocaq Mistandan olan bir zatın adı ilə bağlı olduğu üçün ona çox zaman Pir-e Mistan deyirmişlər.O öz dövrünün kəramətli şəxslərindən olmuş və bu ərazidə islamı yayanlardan hesab edilmişdir.Bu yer o ərazidə yerləşən insanların güman mənbəyi və şəfa tapdıqları bir müqəddəs məkan olmuşdur.

**41.Pir-e Əshabə**(Pirasora kəndi).Pir-e Əshabə Lerik rayonunun Pirasora kəndi ərazisdində yerləşir. Əsasən az ziyarət olunan türbələrdəndir.

**42.Pirağa ocağı**(Piəkujə kəndi).Pirağa ocağı Lerik rayonunun Andurma kəndi ilə Rvarud arasında olan Piəkujə kəndi ərazisində yerləşir.Zimir Cahangir ağanın qardaşıdır və Mir Şükürulla ağanın oğludur.O,Vaxti ilə Həzovi kəndindən Piəkujəyə köçmüşdür. Onun nəslindən olan Mir Tofiq ağanın dediklərinə örə onun uzun müddət uşağı olmadığından Yardımlının Sırıq kəndindən bir ölmüş seyidi dul arvadını öz uşağı ilə birlikdə alır və uşağıda öz uşağı kimi qəbul edir.O, dul qadın onun evinə gələn kimi ağanın birinci arvadı hamilə qalıb uşaq doğur. Onun nəslindən olanlar hal-hazırda Lənkəranın Mamusta kəndində

yaşayırlar.Mir Şükürulla ağa da iranın Fəxrabad məntəqəsindən vaxtı ilə köçüb buraya gəlmişdir.

**43.Pir Yusif türbəsi**(Kekoni kəndi)**.**Pir Yusif türbəsi Lerik rayonunun Kekoni kəndi ərazisində yerləşir. Yerli əhali Pir Yusif türbəsinə gəlir,əlini daşa sürtür və şəfa tapır.Deyilənlərə görə bu həm də ağrı daşıdır.Bu türbə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 4777,sistem kodun isə AJA004579-dur.



**44.Piəmod ocağı**(Rəzəvül kəndi). Piəmod ocağı Lerik rayonunun Rəzəvül kəndi ərazisində yerləşir. Bu ocağın tikilmə tarixi məlum deyil, lakin yerli sakinlər cümə axşamları bu ocağı ziyarət edirlər. Piəmod ocağı təpənin yamacında yerləşdiyindən o birtərəfli formada durmaqdadır.Ocaqın divarları çöl tərəfdən suvaq edilmiş və onun yan tərəfdə ağ rəngdə bir qapısı, arxa tərəfdə isə kiçik havalandırma pəncərəsi var.Ocağın damı qəhvəyi rəngli matertialla örtülmüşdür. *Şəkil. Piəmod ocağı.*



**45.Piəmil ocağı**(Mondigah kəndi). Piəmil ocağı Lerik rayonunun Mondigah kəndi ərazisində yerləşir. Kənd sakini Gəray Qənbərovun dediklərinə görə Piəmil ocağı 14 cu əsrdə yarandığı ehtimal olunur. Əsasən müqəddəs bayramlarda ziyarət olunur.Ocağın ərazisində yaşı 1000 il olan iki nəhəng Nil ağacı da var ki insanlar zaman-zaman gəlib buranı ziyarət edir, niyyət edərək ağaclara rəngli parçalar bağlayırlar.Ocağın ərazisində qədim qəbiristanlıq da var ki burada artıq yaşlı ölən insanlar burada dəfn olunmur. Yaxın 40 ildə isə bu ocağın ərazisindəki köhn qəbiristanlıqda yalnız körpə rəhmətə gedənləri dəfn ediblər.*Şəkil.Piəmil ocağı.*

**46.Piəxisəddin ocağı**(Hücü kəndi).Piəxisəddin ocağı Lerik rayonunun Tikəband sovetliyinin Hücü kəndi ərazisində yerləşir. Bu ocaq haqqında az məlumat olsada yerli sakinlərin dediklərinə görə bu ocağın sahibi ağır seyid olmuş və insanlar zaman-zaman bu ocağa öz niyyətləri ilə gəlib şəfa tapmışlar.Az ziyarət olunan ocaqlardandır.Piəxisəddin adından da göründüyü kimi ağır bir seyid olmuş və öz zamanında insanlar ərəfindən etimad göstərilən bir şəxs olmuşdur.



**47.Pir Müzəffər ocağı.**(Soru kəndi).Piəmızəffə ocağı Lerik rayonunun Soru kəndi ərazisində, kəndin ortasında yerləşir. Soru kənd sakini Anar Ağayevn dediklərinə görə bu ocaq əvvəllər çox sadə formada olub adi bir qəbirdən ibarət olub.Yerli talışlar zaman-

zaman bu qəbirin yanına gələrək "ço" yandırıb niyyət ediblər. "Ço" Talışca ağac başına bağlanmış köhnə əsk parçasına deyilir ki o qəbirin yanında yerə batırılaraq yandırılır. 2013-cü ildə Camanşair kənd sakini olan Çingiz Davuov adlı iş adamı u ocaqda öz şəxsi vəsaiti hesabına fivarlar tikib damını örtüb.Piəmızıfı sözünün mənası Talışca qoca Müzəffər deməkdir,lakin sonralar Azərbaycan dilində təhrifə uğrayaraq Pir Müzəffər şəklinə düşüb.



**48.Perzaşoxən ocağı**(Xəlifəkənd kəndi).Perzaşoxan ocağı Lerik rayonunun Xəlifəkənd kəndi ərazisində yerləşir.Rəvayətə görə Perzaşoxən Perza babanın nəvəsi olmuşdur və o ölməmişdən qaba vəsiyyət edib ki, mən öləndən sonra, qüsl kəfənimdən sonra qiblə tərəfdən bir ağ dəvə gələcək və mənim cənazəmi o dəvənin tərginə qoyarsız, dəvə harada otursa orada dəfn edərsiniz. Belə ki, bu dəvə indiki Xəlifəkənd ərazisidnə, bir təpənin üstündə oturmuş və elə ordaca ağanı dəfn ediblər. *Şəkil. Perzəşoxən ocağı.*



**49.Seyid İbrahim İbn Cobir Ənsar tübəsi.**Cabir Lerik şəhərindən cənubda,Cəngəmiran kəndinə gedən yolun solunda yerləşir. Türbənin XII-XIV əsrlərə aid olduğu ehtimal edilir.Deyilənlərə görə burada xəlifə Cobir Ənsar dəfn edilib.Türbənin üstü 1994-cü (1996) ildə həkim Hacı Elman Abdullayev tərəfindən təmir edilmişdir.Bu vaxta qədər

burada sadəcə qəbir mövcud idi.Qəbrin üstündəki türbədən başqa ibadət üçün bir yardımçı otaq da inşa edilmişdir.Bu vaxta qədər burada sadəcə olaraq bir qəbir mövcud olmuşdur.Beləki, qəbirin üstündəki türbədən başqa ibadət üçün bir yardımçı otaq tilimişdir və onun sahəsi 6x5 metrdir.Bir müddət sonra yardımçı otaqlar tikilmişdir və bu otaq qaınlar üçün nəzərdə tutulub.Cobir Ənsar türbəsi mənbələrdə XIV əsrə Aid edilir və türbənin həyətində qədim dövrlərə aid olan daş qoç heykəlləri var, lakin əfsuslar olsun ki, bu qoç heykəllərin bir qismi məhv edilmişdir. Belə ki, burada sınıq məzar daşı var və onun üzərində ərəb əlifbası ilə "İbrahim" adı yazılıb.*(Bax:Samir Kərimov. Lerik rayonunun arxeoloji abidələri, B, 2006, səh. 95).* Ərəb mənbələrində onun adı Cobir Nasar kimi çəkilir. Bunu əsas götürərək demək olar ki, Cobir Nasar 7-ci əsrdə sasanilər imperiyası dağıldıqdan sonra Taleşan hakimi Bəhram Fərruxzadın ərəblərə qarşı qaldırdığı 642- il 27 iyun üs-yanında yaxından iştirak etmiş bir sərkərdədir. Elə bu səbəbdəndə Mədəniyyət və Turizim Nazirliyi bu abidəni VII əsrə aid edir və 1996-cı ildə Cabir Ənsarın məzarı üzərində türbə tikilmişdir.Bu türbə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 4785,sistem kodu isə AJA004587-dir.*Şəkil. Cobir türbəsi.*



**50.Seyid Mir Kazım ağa türbəsi** (Amburdərə kəndi).Seyid Mir Kazım ağa türbəsi Lerik rayonunun Amburdərə kəndi ərazisində yerləşir.Türbənin hündürlüyü 3 metr olmaqla düzbucaqlı formadadır. Adından da göründüyü kimi bu türbə öz adını Seyid Mir Kazım ağa dında bir dini şəxsiyyətdən götürmüşdür.Ehtimal ki Seyid Mir

Kazım ağa öz dövrünün tanınmış seyidlərindən olmuş və o zamanın insanlıarının etmiad göstərdiyi bir ağır seyid olmuşdur.Türbənin damında göy rəngli dairəvi günbəz yerləşir. Şəkil. Mir Kazım ağa türbəsi.



**51.Seyid Paşa türbəsi**(Rvarud kəndi). Seyid Paşa türbəsi Lerik rayonunun Rvarud kəndi ərazisində yerləşir.Deyilənlərə görə Seyid Paşa Mir Cahangir ağanın nəvəsidir və bu türbədə onun qəbri yerləşir.Bu türbə el arasında həm də,"Asədoji tıbə" adlanır.Beləki, "astə" -talışca "sümük", "doji" – isə ağrı,"tıbə" isə "pir" deməkdir.Yəni bədən sümüklərində ağrısı olan insanlar bu türbəyə pənah gətirir və sonra şəfa tapır. Lakin deyilənlərə görə Astədojə türbəsinin tarixi Seyid Paşa ağadan daha qədimdir.Zaman-zaman sonra Seyid Paşa ağa bu türbə ərazisində dəfn edildikdən sonra bu ocaq sonralar Seyid Paşa ocağı kimi də tanınmağa başlanıldı.Lakin ətraf kəndlərin sakinləri bu ocağı Səyd Poşə ocəğ və bəziləri də "Səydə Po ocəğ" deyirlər.Hal-hazırda burada kiçik bir ziyarətgah binası mövcuddur. *Şəkil. Seyid Paşa türbəsi.*



**52.Seyid Vəliağa ocağı.**(Rvarud kəndi). Seyid Vəliağa ocağı yerli əhəmiyyətlidir və Lerik rayonunun Rvarud kəndi ərazisində yerləşir. Ocağın sahibi Seyid Vəliağa Mirqəni oğludur və o 1893-1973-cü illər ərzində yaşamışdır.Seyid Vəliağanın babası vaxtı ilə İranın Meşkin mahalının Fəxrabad kəndi

ərazisindən bu yerlərə köçüb gəlmişdir. Seyid Vəliağa Rvarud və ətraf kəndlərdə kəramətli seyid kimi tanınmış vəhörmət qazanmışdır.Rəhmətə gedəndən sonra qəbri ziyarətgah çevrilmişdir. Seyyid Vəliağa Mirqəni oğlu (1893-1973) XX əsrdə yaşamışdır. Böyuk kəramət sahibi olmuşdur. Rvarudda və ətraf kəndlərdə kəramətli Seyyid kimi tanınıb, hörmət qazanmışdır.Qəbri zaman keçdikcə ziyarətgaha çevrilib. Oğlu Seyyid Əbülağa tərəfindən abidə inşa edilmişdir. 2013-cü ildə yenidənqurma işləri aparılmış, abidəyə yeni görkəm verilmişdir. Qeyd olunan ziyarətgahlarda təkcə yaxın ərazilərdən deyil, paytaxtdan, ətraf rayonlardan və xaricdən gələn ziyarətçilərlə rastlaşmaq olar. Seyyid Vəliağa(1901-1973)ibn Mir Qəni ibn Fətulla ibn Əsədulla ibn Məmmədəli ibn Seyidi ibn Seyid Cahangir ibn Mir Şükürülla ibn Seyid İsmayıl ibn Seyid Suleyman (Meşkin-Fəxrəbad kəndi) Səfəvi seyidləri-Musayı Kazım nəsli.Rvarud kəndində olan Təğiyon tayfası ilə ən yaxın qohumdurlar, yəni eyni kökdən ulu baba Məmmədəlidən törəyiblər. Seyyid Vəliağanın babası Fətulla,Təğiyon tayfasının ulu babası Təğinin qardaşı Əsədullanın oğlu olub. Seyyid Vəliağanın atası Mir Qəni Fətulla oğlu Lənkəran qəzasının Zuvand mahalının Veri kənd cəmiyyətinin Rvarud kəndində 1876-ci ildə anadan olmuşdur.Seyyid Vəliağanın babası Fətulla kişi Rvarud kəndinin Dini Məhkəmə uzrə Qazisi olmuşdur.Nəsildən gələn savad Seyyid Vəliağanı Zuvand mahalında seçilməyə vadar edirdi, onun dini və dunyavi təhsili və bilgiləri yuksək idi. Sənədlərə görə 1901-ci ildə anadan olan Seyyid Vəliağa ibn Mir Qəni Fəxrəbadi-Rvarudi alim və kəndin obanın böyuk ağsaqqalı olmuşdur.Onun fəziləti və kəraməti haqqında Lənkəranın, eləcə də Lerikin bir çox kəndlərində hekayələr və rəvayətlər mövcuddur.Hal-hazırda Rvarud kəndində yaşayan onun oğlu Seyid Əbülağa tərəfinfdən ağanın qəbrinin üstündə abidə inşa etmişdir.Lakin 2013-cü ildə bu abidə yenidən

restavrasiya olunaraq şərq memarlığı üslubunda inşa edilmişdir. Elə bu səbəblərdən də Seyid Vəliağanın qəbrini ziyarət etmək üçün nəinki ətraf kəndlərdən, eləcə də xarici ölkələrdən də insanlar axın edirlər. *Şəkil. Seyid Vəliağa ocağı.*

**53.Sardoni ocagı**(Əvilə kəndi).Sardoni ocağı yerli əhəmiyyətli ziyarətgahdır və Lerik rayonunun Sardoni kəndi ərazisində yerləşir.Bu ocaq əsasən yerli sakinlər tərəfindən ziyarət olunur.Zaman-zaman insanlar bu ocağa üz tutub öz diləkləri ilə bu ocaqdan şəfa diləyir və ümid bəsləyirlər.Adından da görüdüyü kimi bu ocaq öz adını talışca olan "Sard" –soyuq,"honi" – bulaq sözlərindn götürmüşdür. Ehtimal ki yerli əhali bu ocaqda mövcu olmuş bulağın suyunu müqəddəs hesab etmiş və onun suyunu içərək şəfa tapmışdır.

**54.Soltan Heydər türbəsi**(Mistan nümayəndəliyinin Diqov kəndi).Soltan Heydər türbəsi yerli əhəmiyyətlidir.Deyilənlərə görə burada Şeyx Səfiəddinin nəvəsi və şah İsmayılın atası Şeyx Heydər dəfn olunub.Elə bu səbəbdən də bu qəbir şiələrin ziyarət məkanına çevrilib.

**55.Saf Seyid türbəsi**(Ləmərüd kəndi).Saf seyid türbəsi yerli əhəmiyyətli türbədir və Lerik rayonunun Ləmərüd kəndi ərazisində yerləşi.Əsasən az ziyarət olunan türbələrdəndir.

**56.Siyo pi türbəsi**(Soru kəndi).Siyopi(Qara pir) ocağı yerli əhəmiyyətli türbədir və Lerik rayonunun Soru kəndi ərazisində yerləşir.Siyop sözü adından göründüyü kimi Talışca olan "Siyo" – qara və "pi" – pir sözlərindəndir. Kənd sakini Anar Ağayevin dediklərinə görə Siyopi ocağı kəmdlə üz-üzə,çayın o biri sahilində, açıq bir sahənin ortasında yerləşir.Ocağın həyətində çoxl hündür və yaşlı ağaclar var. Bu ağacların altında isə qədim

qəbirlər var.Ətrafdakı ağaclar budansa da o pirin həyətindəki ağaclara toxunulmamış və bu səbəbdən də bu ağaclar bir buta şəklində sahənin ortasında uzaqdan diqqəti cəlb edir.Burada olan yaşlı ağaclarının bəzilərinin 300 dən çox yaşı var.2010-cu ildə kəndin Rusiyada yaşayan imkanlı sakinlərindən biri ocqda bir az abadlıq işləri apararaq orada bir daxma şəklində pir düzəldib damını da örtüb.

**57.Siyo pi türbəsi**(Mondigah kəndi). Siyopi(Qara pir) ocağı yerli əhəmiyyətli türbədir və Lerik rayonunun Mondigah kəndi ərazisində yerləşir. Siyop sözü adından göründüyü kimi Talışca olan "Siyo" – qara və "pi" – pir sözlərindəndir.Kənd sakinlərinin dediklərinə görə Siyopi yeddi imamın nəvələrindəndir və dini tarixdə adı keçir.Bu türbə zaman-zaman yerli sakinlərin iman gıtirdikləri bir müqəddəs məkan olmuşdur və əsasən az ziyarət olunan ocaqlardandır.



*Şəkil. Siyopi ocağı*

**58.Şeyx Səfi türbəsi**(Kələxan kəndi). Şeyx Səfi türbəsi yerli əhəmiyyətli memarlıq abidəsidir və Lerik rayonunun Kələxan kəndi ərazisində yerləşmişdir.Kənd sakini Rüstəm Pirlinin dediklərinə görə bu türbənin tarixi orta əsrlərə gedib çıxı və Azərbaycanda Sovet hakimiyyəti qurulanda bu türbə dağıdılıb.1992-1998-ci illərə qədər bu türbənin ərazisində bir yetim qəbir qalmıdır.Hal-hazırda itib-batmaq üzrədir.




**59.Şahzadə Seyid Əbülqasım türbəs**(Rvarud kəndi). Seyid Əbülqasım türbəsi yerli əhəmiyyətlidir.Türbənin tikilmə tarixi XVI əsrə təsadüf edir. Türbənin giriş qapısı yanında qara rəngdə mərmər löhvə var və bu löhvədə bu sözlər yazılıb: "ariflərin sultanı, türbəsi müqəddəs taliblərin ən seçilmişi" kimi ad çıxarmış Nizaməddin Şəhrəvər Gilani Kəsgərinin(Seyyid Babagil) sərkərdəsi,qoşun başçısı olmuşdur.Bab Gilani (Bobogil) vəfat edəndən sonra yerini və qoşununa başçılığı Şahzadə Seyyid Əbülqasimə vəsiyyət etmişdir.Şahzadə Əbülqasim bir müddət sonra "seyidlər ocağı" kimi tanınan Rvarud kəndinə gəlir və burada məskunlaşır.Şahzadə Əbül-Qasım uzun müddət bu kənddə yaşamış və böyük hörmət qazanmışdır və elə bu kənddə vəfat etmişdir.Ölümündən sonra bu kənddə dəfn edilmiş və zaman-zaman sonra qəbri ziyarətgaha çevrilmişdir. 2013-cü ildə Rvarud kəndinin xeyriyyəçi insanları tərəfindən türbə əsaslı surətdə təmir olunmuşdur. Türbə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin qeydiyyatına alınaraq dini turizm marşurutuna daxil edilmişdir.Türbə Lerik rayonunun Rvarud kəndi ərazisində yerləşir. *Şəkil.Şahzadə seyid Əbülqasim türbəsi. Lerik, Rvarud kəndi.*

**60.Şeyx Səla türbəsi**(Qışlaq kəndi).Şeyx Səla türbəsi yerli əhəmiyyətli memarlıq abidəsidir və Lerik rayonunun Qişlaq kəndi ərazisində yerləşir.Abidənin invertar nömrəsi 4781,sistem kodu isə AJA4583-dür.

**61.Şıx Cənnət türbəsi**(Ker kəndi).Şıx Cənnət türbəsi yerli əhəmiyyətli memarlıq abidəsidir və Lerik rayonunun Ker kəndinə

yerləşir. Bu türbə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 4774, sistem kodu isə AJA004576-dır.

**62.Türbə Lünə**(Nodə kəndi).Bu türbə ölkə əhəmiyyətli arxeoloji abidədir və türbə Lerik rayonunun Nodə kəndi ərazisində yerləşir. Abidənin tarixi Antik dövrə aiddir. Bu türbə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 1473,sistem kodu isə AJA001495-dir.

**63.Qəqoy türbəsi(**Qəqoy kəndi).Bu türbəsi yerli əhəmiyyətli memarlıq abidəsidir və Lerik rayonunun Qəqoy kəndi ərazisində yerləşir.Bu ocağın sahibi ağır seyid olmuş və öz dövrünün tanınmış və kəramətli şəxsiyyətlərindən olmuşdur.Vəliəddin ocağı zaman-zaman insanların pənah yeri və sonradan isə ziyarətgah yeri olmuşdur. Hal-hazırda yerli əhali tərəfindən ziyarət olunur.Bu türbə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 4790, sistem kodu isə AJA004592-dir.

**64.Vəliəddin ocağı**(Mistan kəndi).Vəliəddin ocağı yerli əhəmiyyətlidir və Lerik rayonunun Mistan–Perzarə kəndləri yaxınlığında yerləşir.Bu ocağın sahibi ağır seyid olmuş və öz dövrünün tanınmış və kəramətli şəxsiyyətlərindən olmuşdur. Vəliəddin ocağı zaman-zaman insanların pənah yeri və sonradan isə ziyarətgah yeri olmuşdur.Hal-hazırda yerli əhali tərəfindən ziyarət olunur.




*Şəkil. Vəliəddin ocağı.*

**65.Zəcəğaj türbəsi**(Xəlifə -Perzara arası).Zəcəğaj türbəsi yerli əhəmiyyətlidir və Lerik rayonunun Perzarə və Xəlifəkənd kəndləri arasında yerləşir.Bu ocağın tarixi haqqında dəqiq məlumat yoxdur və ocaq ərazisində dörd naməlum qəbir var ki, onlarında üzərində heç bir yazı yoxdur.Deyilənlərə bu ocağı nəsildən-nəsilə yaşatmışlar,lakin sovet dövründə bütün dini yerlər kimi bu ocaq da qadağan edilib bağlanmışdır.Uzun müddət istifadəsiz qaldığından yararsız hala düşüb dağılmışdır.

**66.Ziyil türbəsi**(Perzəkücə və Mədiyəkücə kəndləri arası).Ziyil türbəsi yerli əhəmiyyətli türbədir və lerik rayonunun Perzəküjə və Mədiyəküjə kəndləri arasındakı ərazidə yerləşir.Ocağın tarixi məlum olmasa da onu ziyarətedənlıər az deyil.Belə ki,bu ocqlar əsasən yerli sakinlər və ətraf yaxın kəndlərin sakinləri tərəfindən ziyarət olunur.

# III HİSSƏ LERİK MƏSCİDLƏRİ

## 1.Lerik rayonu üzrə məscidlər cədvəli

## Ümumi: 99 məscid. Dövlət Komitəsində icması qeydiyyatdan keçən məscidlərin sayı – 27

## Dini icması olmayan məscidlərin sayı – 72

| № | Şəhər, qəsəbə, kənd | Məscidin sahəsi (m2) və tutumu (nəfər) | Məsciddə dini icma qeydiyyatı və tarixi | Tikilmə tarixi |
|---|---|---|---|---|
| 1 | Anzolu kənd məscidi | 14, 8 m2, 30 nəfər | Dini icma yoxdur | XX əsr |
| 2 | Andurma kənd məscidi | 112 m2, 98 nəfər | Qeydiyyatı var Q-n keçib 09.10.18 | XX əsr |
| 3 | Amburdərə kəndməscidi | 120 m2, 110 nəfər | Qeydiyyatı var Q-n keçib29. 11. 18 | XX əsr |
| 3 | Ambu kənd məscidi | 80 m2, 80 nəfər | Dini icma yoxdur | XX əsr |
| 5 | Almu kənd məscidi | 100 m2, 90 nəfər | Dini icma yoxdur | 2000-ci il |
| 6 | Axunahiran kənd məscidi | 45 m2, 45 nəfər | Dini icma yoxdur | 2000-ci il |
| 7 | Akuşapeştə kənd məscidi | 90 m2, 90 nəfər | Qeydiyyatı var Q-nkeçib 24.04.15 | XX əsr |
| 8 | Blaband kənd məscidi | 180 m2, 200 nəfər | Qeydiyyatı var Q-n keçib 03.12.09 | XX əsr |
| 9 | Barzavu kənd məscidi | 86 m2, 89 nəfər | Dini icma yoxdur | XX əsr |
| 10 | Brkandul kənd məscidi | 32 m2, 40 nəfər | Qeydiyyatı var Q-n keçib 14.11.16 | XX əsr XX əsr |
| 11 | Bradi kənd məscidi | 32 m2, 40 nəfər | Dini icma yoxdur | XX əsr |

| | | | | |
|---|---|---|---|---|
| **12** | **Bibiyani kənd məscidi** | 136 m2, 130 nəfər | Qeydiyyatı var Q-nkeçib 19.06.15 | 2002-ci il |
| **13** | **Babakücə kənd məscidi** | 60 m2, 60 nəfər | Dini icma yoxdur | XX əsr |
| **14** | **Bürsülüm kənd məscidi** | 45 m2, 45 nəfər | Dini icma yoxdur | XX əsr |
| **15** | **Büzeyir kənd məscidi** | 60 m2, 60 nəfər | Dini icma yoxdur | XX əsr |
| **16** | **Bilnə kənd məscidi** | 80 m2, 80 nəfər | Dini icma yoxdur | XX əsr |
| **17** | **Boykəndil kənd məscidi** | 90 m2, 90 nəfər | Dini icma yoxdur | 2013-2014 |
| **18** | **Cəngəmiran kənd məscidi** | 48 m2, 60 nəfər | Qeydiyyatı var Q-n keçib 26.07.10 | XX əsr |
| **18** | **Conu kənd məscidi** | 30 m2, 30 nəfər | Dini icma yoxdur | XX əsr |
| **20** | **Camaşair kənd məscidi Xanım Fatimeyi-Zəhra" məscidi** | 200 m2, 200 nəfər | Qeydiyyatı var Q-n keçib 15.02.12 | 2009-cu il |
| **21** | **Cənginəvud kənd məscidi** | 94 m2, 90 nəfər | Dini icma yoxdur | 2002-ci il |
| **22** | **Çayrud kənd məscidi** | 112 m2, 98 nəfər | Dini icma yoxdur | XX əsr |
| **23** | **Çayrud kənd məscidi** | 120 m2, 100 nəfər | Dini icma yoxdur | XX əsr |
| **24** | **Daster kənd məscidi** | 24 m2, 35 nəfər | Dini icma yoxdur | XX əsr |
| **25** | **Dico kənd məscidi** | 32 m2, 30 nəfər | Dini icma yoxdur | 2007-ci il |
| **26** | **Divağac kənd məscidi** | 80 m2, 80 nəfər | Dini icma yoxdur | XX əsr |
| **27** | **Davradibi kənd məscidi** | 40 m2, 40 nəfər | Dini icma yoxdur | 2004-cü il |
| **28** | **Dızdipok kənd məscidi** | 26 m2, 26 nəfər | Dini icma yoxdur | XX əsr |
| **28** | **Durğan kənd məscidi** | 50 m2, 50 nəfər | Dini icma yoxdur | XX əsr |
| **30** | **Ərdəbilə kənd** | 50 m2, | Dini icma yoxdur | XX əsr |

| | | | | |
|---|---|---|---|---|
| | **məscidi** | 50 nəfər | | |
| **31** | **Əliabad kənd məscidi** | 60 nəfər | Dini icma yoxdur | 2007-ci il |
| **32** | **Əvilə kənd məscidi** | 32 m2, 30 nəfər | Dini icma yoxdur | XX əsr |
| **33** | **Göydərə kənd məscidi** | 60 m2, 60 nəfər | Qeydiyyatı var Q-n keçib 20.04.16 | XX əsr |
| **34** | **Gürdəsər kənd məscidi** | 240 m2, 240 nəfər | Qeydiyyatı var Q-n keçib 15.02.12 | 2006-cı il |
| **35** | **Günəşli kənd məscidi** | 90 m2, 90 nəfər | Dini icma yoxdur | XX əsr |
| **36** | **Hamarat kənd məscidi** | 120 m2, 110 nəfər | Dini icma yoxdur | XX əsr |
| **37** | **Hamarmeşə kənd məscidi** | 114 m2, 200 nəfər | Qeydiyyatı var Q-n keçib 14. 11. 16 | 2005-ci il |
| **38** | **Hiveri kənd məscidi** | 60 m2, 60 nəfər | Dini icma yoxdur | XX əsr |
| **39** | **Hoveri kənd məscidi** | 50 m2, 50 nəfər | Dini icma yoxdur | XX əsr |
| **40** | **Hovil kənd məscidi** | 50 m2, 50 nəfər | Dini icma yoxdur | XX əsr |
| **41** | **Hıramo kənd məscidi** | 110 m2, 90 nəfər | Dini icma yoxdur | 2009-2010 |
| **42** | **Kələxan kənd məscidi** | 120 m2, 110 nəfər | Qeydiyyatı var Q-n keçib 29.11.18 | XX əsr |
| **43** | **Kəlvəz kənd məscidi** | 50 m2, 60 nəfər | Dini icma yoxdur | XX əsr |
| **44** | **Küman kənd məscidi** | 80 m2, 80 nəfər | Dini icma yoxdur | XX əsr |
| **45** | **Küsəkəran kənd məscidi** | 60 m2, 60 nəfər | Dini icma yoxdur | XX əsr |
| **46** | **Kıncıvo kənd məscidi** | 80 m2, 78 nəfər | Dini icma yoxdur | XX əsr |
| **47** | **Kirəvud kənd məscidi** | 80 m2, 80 nəfər | Dini icma yoxdur | XX əsr |
| **48** | **Qosmalian kənd məscidi** | 90 m2, 90 nəfər | Qeydiyyatı var Q-n keçib 28. 07. 17 | XX əsr |
| **49** | **Qələsər kənd məscidi** | 75 m2, 75 nəfər | Dini icma yoxdur | XX əsr |
| **50** | **Qələbin kənd məscidi** | 70 m2, | Dini icma yoxdur | XX əsr |

| | | | | |
|---|---|---|---|---|
| | | 70 nəfər | | |
| **51** | **Qələbin kənd məscidi** | 70 m2, 60 nəfər | Dini icma yoxdur | XX əsr |
| **52** | **Qılqılov kənd məscidi** | 40 m2, 40 nəfər | Dini icma yoxdur | XX əsr |
| **53** | **Qışlaq kənd məscidi** | 50 m2, 50 nəfər | Dini icma yoxdur | 2008-ci il |
| **54** | **Lerik şəhər məscidi** | 280 m2, 350 nəfər | Dini icma yoxdur | XX əsr |
| **55** | **Lüləkəran kənd məscidi** | 84,6 m2, 87 nəfər | Qeydiyyatı var Q-n keçib 01.12.09 | XIX əsr |
| **56** | **Livədirqə kəndməscidi** | 96 m2, 90 nəfər | Dini icma yoxdur | XX əsr |
| **57** | **Laman kənd məscidi** | 96 m2, 90 nəfər | Dini icma yoxdur | XX əsr |
| **58** | **Ləlǝhiran kənd məscidi** | 112 m2, 95 nəfər | Dini icma yoxdur | XX əsr |
| **59** | **Lərmərud kənd məscidi** | 75 m2, 68 nəfər | Dini icma yoxdur | XX əsr |
| **60** | **Mastail kənd məscidi** | 112 m2, 100 nəfər | Dini icma yoxdur | XX əsr |
| **61** | **Mistan kənd məscidi** | 140 m2, 130 nəfər | Qeydiyyatı var Q-n keçib 18. 07. 16 | XX əsr |
| **62** | **Monidigah kənd məscidi** | 86 m2, 80 nəfər | Qeydiyyatı var Q-nkeçib 21.07.10 | XX əsr |
| **63** | **Molalan kənd məscidi** | 80 m2, 80 nəfər | Dini icma yoxdur | XX əsr |
| **64** | **Murya kənd məscidi** | 65 m2, 65 nəfər | Dini icma yoxdur | XX əsr |
| **65** | **Nücü kənd məscidi** | 100 m2, 98 nəfər | Dini icma yoxdur | XX əsr |
| **66** | **Nuravud kənd məscidi** | 120 m2, 120 nəfər | Dini icma yoxdur | XX əsr |
| **67** | **Nısomurya kənd məscidi** | 30 m2, 30 nəfər | Dini icma yoxdur | 2004-cü il |
| **68** | **Noda kənd məscidi** | 96 m2, 90 nəfər | Dini icma yoxdur | XX əsr |
| **69** | **Ordahal kənd məscidi** | 60 m2, 50 nəfər | Dini icma yoxdur | XX əsr |
| **70** | **Orand kənd məscidi** | 48 m2, | Dini icma yoxdur | 2006-2014 |

| | | | | |
|---|---|---|---|---|
| | | 48 nəfər | | |
| **71** | **Pirzəküçə kənd məscidi** | 25, 6 m2, 42 nəfər | Qeydiyyatı var Q-n keçib 07.05.10 | XX əsr |
| **72** | **Pirasora kənd məscidi** | 120 m2, 100nəfər | Dini icma yoxdur | XX əsr |
| **73** | **Pendi kənd məscidi** | 50 m2, [illegible] nəfər | Dini icma yoxdur | XX əsr |
| **74** | **Piran kənd məscidi** | 90 m2, 90 nəfər | Qeydiyyatı var Q-n keçib 20.04.16 | XX əsr |
| **75** | **Pirzora kənd məscidi** | 125 m2, 100 nəfər | Dini icma yoxdur | 2000-ci il |
| **76** | **Rvarud kənd məscidi** | 128, 8 m2, 126 nəfər | Qeydiyyatı var Q-n keçib 30. 07. 10 | XX əsr |
| **77** | **Rəzgov kənd məscidi** | 55 m2, 55 nəfər | Dini icma yoxdur | XX əsr |
| **78** | **Soru kənd məscidi** | 120 m2, 120 nəfər | Qeydiyyatı var Q-n keçib 15. 07. 13 | 2002-ci il |
| **79** | **Siyov kənd məscidi** | 60 m2, 60 nəfər | Dini icma yoxdur | 2002-2004 |
| **80** | **Sipyəreğon kənd məscidi** | 90 m2, 90 nəfər | Qeydiyyatı var Q-n keçib 24.04.15 | 2001-ci il |
| **81** | **Şingədulan kənd məscidi** | 120 m2, 100 nəfər | Dini icma yoxdur | XX əsr |
| **82** | **Şonaçola kənd məscidi** | 60 m2, 74 nəfər | Dini icma yoxdur | XX əsr |
| **83** | **Şinəband kənd məscidi** | 80 m2, 80 nəfər | Qeydiyyatı var Q-n keçib 09.10.18 | 2013-cü il |
| **84** | **Təngəbin kənd məscidi** | 96 m2, 50 nəfər | Dini icma yoxdur | XX əsr |
| **85** | **Tikəband kənd məscidi** | 40 m2, 40 nəfər | Dini icma yoxdur | 2003-cü il |
| **86** | **Tikəband kənd məscidi** | 45 m2, 45 nəfər | Dini icma yoxdur | 2008-ci il |
| **87** | **Təndül kənd məscidi** | 48 m2, 45 nəfər | Dini icma yoxdur | XX əsr |
| **88** | **Təbrizli kənd məscidi** | 80 m2, | Dini icma yoxdur | 2007-2012 |

| | | | | |
|---|---|---|---|---|
| | | 80 nəfər | | |
| **89** | **Vistən kənd məscidi** | 24 m2,<br>35 nəfər | Dini icma yoxdur | XX əsr |
| **90** | **Vizəzəmin kənd məscidi** | 140 m2,<br>140 nəfər | Qeydiyyatı var<br>Q-n keçib 20. 04. 16 | XX əsr |
| **91** | **Veri kənd məscidi** | 60 m2,<br>60 nəfər | Qeydiyyatı var<br>Q-n keçib 18.07.16 | XX əsr |
| **92** | **Veri -Əliabadı kənd məscidi** | 45 m2,<br>45 nəfər | Dini icma yoxdur | XX əsr |
| **93** | **Vov kənd məscidi** | 48 m2,<br>48 nəfər | Dini icma yoxdur | XX əsr |
| **94** | **Zenoni kənd məscidi** | 100 m2,<br>90 nəfər | Dini icma yoxdur | XX əsr |
| **95** | **Zərikuməco kənd məscidi** | 80 m2,<br>80 nəfər | Dini icma yoxdur | XX əsr |
| **96** | **Zərdəbərə kənd məscidi** | 98 m2,<br>90 nəfər | Dini icma yoxdur | XX əsr |
| **97** | **Zardoni kənd məscidi** | 40 m2,<br>40 nəfər | Dini icma yoxdur | 2002-ci il |
| **98** | **Züvüç kənd məscidi** | 90 m2,<br>90 nəfər | Qeydiyyatı var<br>Q-n keçib 30. 06. 17 | 2012-2014 |
| **99** | **Zövnə kənd məscidi** | 100 m2,<br>100 nəfər | Qeydiyyatı var<br>Q-n keçib 28. 07. 17 | 2013-cü il |

## 2. Lerik məscidləri (99 ədəd)



**1.Anzolu kənd məscidi.**Anzolu kənd məscidi Lerik rayonunun Anzolu kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir.Məscid yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-böyüyə qədər yaxından iştirak etmişdir.Məscidin sahəsi 14,8 kv. metr, tutumu 30 nəfər və dini icması yoxdur.Anzolu məscidi hündürlüyü 20 sm olan beton səki üzərində yerləşir və məscid divarları çiy kərpiclərdən hörülmüşdür. Lakin sonralar məscidin divarlarına çöl tərəfdən ağ əhənglə suvaq vurulmuşdur. Məscidin damı dəmir materialı ilə örtülmüşdür.Məscidin ön tərəfdən eyni ölçüdə göy rəngdə beş taxta pəncərə var və yan tərəfində isə bir giriş qapısı.Məscidin dini icması yoxdur.*Şəkil. Anzolu kənd məscid.*



**2.Andurma kənd məscidi.** Andurma kənd məscidi Lerik rayonunun Andurma kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir.Andurma kənd sakini Məhəbbət Samiyevin dediklərinə görə Andurma kəndində ilk məscid 1972-ci ildə kənd ağsaqqallarının təşəbbüsü və kənddəki xeeyriyyəçi adamların şəxsi maliyə dəstəyi ilə tikilmişdir.Məscidin tikilməsində yerli əhali hamılıqla öz köməyini əl-birliyi ilə yaxından göstərmişdir.Lakin bu məscid də intensiv yağış suları və baxımsızlıq ucubatından qəzalı vəziyyətə düşmüşdür. Elə bu üzdən də 2020-ci ildə kənd ağsaqqallarının

yenidən təşəbbüsü ilə məscidi əsaslı təmir etmək qərara alınır. Bunun üçün istər kənd də olan xeyriyyəçi adamlarla, istərsə də başqa şəhərlərdə və xarici ölkələrdə yaşayan yerlilə əlqə saxlanılır və onların da şəxsi maliyə dəstəyi ilə məscid yenidən əsaslı şəkildə təmir olunur.Belə ki hər iki məscidin tikintisində və təmirində demək olar ki bütün kənd sakinləri həm fəhl, həm də usta kimi işləmişlər. 1990-cı ildə tikilmişdir.Məscidin ustası Məşhədi Hilal adında şəxs olmuşdur və məscidin tikilməsində yerli əhali ona çox yaxında hamılıqla köməklik etmişlər. Məscidin sahəsi 112 kv. metr, tutumu 98 nəfər və 09. 10. 2018 - ci il tarixində DQİDK - dən dövlət qeydiyyatından keçmişdir. Andurma məscidi dağ yamacında yerləşir.Məscid hündürlüyü 20 sm olan beton səki üzərində yerləşir və məscid divarları çiy kərpiclərdən hörülmüşdür. Lakin sonralar məscidin divarlarına çöl tərəfdən ağ əhənglə suvaq vurulmuşdur.Məscidin damı dəmir materialı ilə örtülmüşdür.Məscidin ön tərəfdən bir giriş qapısı və bir neçə eyni həcmli taxta pəncərəsi var.*Şəkil. Andurma kənd məscidi.*



**3.Ambu kənd məscidi.**Ambu kənd məscidi Lerik rayonunun Ambu kəndi ərazisində yerləşir.Məscidin tikilmə tarixi XX əsrə aiddir. Məscid 1970 - ci ildə yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına tikilib.Məscid yerli sakinlərinin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-böyüyə qədər yaxından iştirak etmişdir. Məscidin iç sahəsi 14x5 metr, hündürlüyü 2,80, tutumu isə 80 m2, 80 nəfər. Məscid əsasən çaylaq daşlarından tikilib və divarları palçıqla ağardılıb.Məscidin damı isə şiferlə örtülüb.Lakin bu

məscid dağılmış və divarlrı isə yağış sularının təsirindən süzülmüşdür. Bu səbəbdən də yerli sakinlərin köməyi ilə məscid sökülərək yerində mişar daşlarından yenisi tikilmişdir.Yeni məscid “P” şəkilli olmaqla yanlarında yardımçı otaqları var və damında isə dördkünc formalı azanverən yer var. Məscidin ön tərəfinin pəncərələri qəhvəyi rəngli 3 plastik pəncərə qoyulub. Məscidin ətrafı qum-sement məhlulu ilə suvanaraq sarırəngləboyanmışdır. Ambu kənd məscidinin sahəsi 80 kv. metr, tutumu 80 nəfər və dini icması yoxdur. *Şəkil. Ambu kənd məscid.*



**4.Amburdərə kənd məscidi.** Amburdərə kənd Lerik rayonunun Amburdərə kəndi ərazisində yerləşir.Məscidin tikilmə tarixi XX əsrə aiddir.Məscid yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-böyüyə qədər yaxından iştirak etmişdir.Məscidin sahəsi 120m2,insan tutumu isə 110 nəfərdir və 29 noyabrl 2018 - ci ildə DQİDK - dən qeydiyyatından keçmişdir.Amburdərə məscidi hündürlüyü 20 sm.olan səki üzərində yerləşir.Məscid divarları mişar daşlarından yerli ustalar tərəfindən hörülmüşdür.Məscidin divarları çöl tərəfdən qum-sement qarışığı ilə suvanmışdır. Amburdərə məscidinin ön tərəfindən eyni ölçüdə beş taxta pəncərəsi vardır. Məscidin damı isə şifer materialından olmaqla azan vermək üçün günbəzi yoxdur.*Şəkil. Amburdərə kənd məscidi.*



**5.Almu kənd məscidi.**Almu kənd məscidi Lerik rayonunun Almu kəndi ərazisində yerləşir.Məscid 2000-ci ildə yerli sakinlərin şəxsi maliyə dəstəyi ilə tikilib və kənd əhalisi də məscidin tikibti işlərində əl birliyi ilə yaxından iştirak edib. Almu kənd məscidinin sahəsi 100 m2, insan tutumu isə 90 nəfərdir və dini icması yoxdur. Məscidi hündürlüyü 40 sm olan beton səki üzərində yeürləşir.Məscid bişmiş qırmızı kərpiclərdən tikilmiş, lakin sonralar onun divarlarına çöl tərəfdən əhənglə suvanmışdır. Almu məscidinin ön tərəfdən eyni ölçüdə 4 ədəd göy rəngdə taxat pəncərə var.Pəncərələrin hündürlüyü 1. 20 metr, eni isə 1 metrdir. Məscidin ön tərəfində iki giriş qapıları var və bu qapıların hündürlüyü 2 metr, eni isə 80 sm. dir.Qapılar göy rəngdədirlər və taxta materialındandırlar. Məscidin döşəməsi torpaq, tavanı isə taxta materialındandır.Məscidin damı şifer materialından olmaqla damda dairəvi formalı günbəz var.*Şəkil.Almu kənd məscidi*



**6.Axunahiran kənd məscidi.** Axunahiran kənd məscidi Lerik rayonunun Axunahiran kəndi ərazisində yerləşir.Məscid 2000-ci ildə yerli sakinlərin şəxsi maliyə dəstəyi ilə tikilib və kənd əhalisi də məscidin tikibni işlərində əl birliyi ilə yaxından iştirak edib.Məscidin sahəsi 45 m2,insan tutumu 45 nəfərdi və məsciddə dini icma yoxdur.Məscid digər dağ kəndlərində olduğu kimi kiçik həcmli məscid xarakteri daşıyır. Belə ki, məscid 40 sm. lik səki üzərində tikilmiş və yerdən tavana

olan hündürlüyü isə 3 metrdir.Məscidin divarları bişmiş kərpiclərdən tikilmiş, lakin sonradan palçıqla suvanmışdır. Məscid divarları çöl tərəfdən ağ əhənglə suvanmışdır.Məscidin sağ tərəfdə göy rəngdə bir taxta giriş qapısı var və bu qapının hümndürlüyü 2 metrdir.Məscidin ön tərəfdə eyni ölçüdə iki göy rəngli taxta pəncərə yerləşir.Axunahhiran kənd məscidinin damı əvvəllər qırmızı kirəmitdən olsa da,sonradan şifirlə əvəz olunmuşdur.Məscidin damında kvadrat formalı azan verən yer var.Məsciddə məhərrəm aylarında imam Hüseyn tənziyyəsi qurulur.Məsciddə dini icma yoxdur. *Şəkil. Axunahiran kənd məscidi.*



**7.Akuşəpeştə kənd məscidi.** Akuşəpeştə kənd məscidi Lerik rayonunun Akuşəpeştə kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir.Məscid yerli sakinlərin şəxsi maliyə vəsaiti hesbına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan -böyüyə qədər yaxından iştirak etmişdir. Akuşapeştə kənd məscidinin sahəsi 90 m2, insan tutumu 90 nəfər və 24.04. 2015 - ci ildə DQİDK - dən qeydiyyatından keçmişdir. Akuşəpeştə kəndind əvvəllər məscid olmamışdır və yerli sakinlər məhərrəm aylarında ddigər qonşu kəndlərə və ya evlərdəki təkiyyələrə üz tutumuşlar.Qış fəslində bu məsələ çətin olduğuna görə kənd ərazisində yeni məscid binası tikilməyə qərar verilmişdir.Hal-hazırki məscidin divarları qımızı kərpicdəndir və onun tinlərində ağ kərpiclərlə xüsusi ustalıqla hörülmüşdür. Məscidin qarşı tərəfdən plastik ağ rəngli qapısı var. məscidin damı dəmirlə örtülmüşdür. *Şəkil. Akuşəpeştə kənd məscidi*



**8.Bılaband kənd məscidi.** Bıləband kənd məscidi Lerik rayonunun Bılaband kəndi ərazisində yerləşir.Məscidin tikilmə tarixi XX əsrə aiddir.Məscid yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-böyüyə qədər yaxından iştirak etmişdir.Məscidin sahəsi 180 m2,insan tutumu isə 200 nəfərdir. Məscidin həyətyanı sahəsi yoxdur, iç sahəsi 16x7 metrdir.Məscid düzbucaqlı formada olmaqla əsasən mişar daşlarından inşa edilib. Məscidin dam örtüyü ilk əvvəl qırmızı kirəmitlə örtülmüş, hal-hazırda isə yaşıl məxməri dam örtüyüdür. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanıb vəməscidin minarəsi var. Məscid 03.12.2009-cu ildə DQDK-dən qeydiyyatından keçmişdir.*Şəkil. Bıləband kənd məscidi.*



**9.Barzavu kənd məscidi.** Barzavu kənd məscidi Lerik rayonunun Barzəvü kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir.Məscid yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-böyüyə qədər yaxından iştirak etmişdir.Məscidin sahəsi 86 m2,insan tutumu 89 nəfərdir və dini icması yoxdur.Beləki, məscid hündürlüyü 50 sm olan beton səki üzərində yerləşir və məscid divarları mişar daşları ilə tikilmişdir.Məscidin ön tərəfində eyni ölçüdə dörd ədəd ağ rəngli plastik pəncərə vardır.Məscidin dam örtüyü yaşıl rəngli dəmir təbəqə ilə örtrülmüşdür.Məscidin döşəməsi torpaq, tavanı isə taxta

ilə hörülmüşdür.Məscidin damında azan vermək üçün günbəz yerləşir.Məscidin dini icması yoxur.*Şəkil. Barzavu kənd məscidi.*



**10.Bırkandül kənd məscidi.** Bırkandül kənd məscidi Lerik rayonunun Bırkandül kəndi ərazisində yerləşir.Məscidin tikilmə tarixi XX əsrə aiddir. Məscid yerli sakinlərinin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-böyüyə qədər yaxından iştirak etmişdir.Məscidin sahəsi 32 m2, insan tutumu 40 nəfər və 14.11.2016- cı ildə DQİDK - dən dövlət qeydiyyatından kçmişdir. Bırkandül kənd məscidi hündürlüyü 20 sm olan səkinin üzərində yerləşir.Məscid Lerik rayonunun digər dağ kənd məscidlərindən öz quruluşuna görə fərqlənir.Beləki, məscid divarları çöl tərəfdən yaşıl rənglə boyanmış və ön tərəfdə eyni ölşüdə 4 ədəd pəncərə var.Məscidin giriş hissəsində dairəvi formalı daşdan arko tikilmişdir və o arkonun ön tərəfində dar və uzun bir plastik ağ pəncərə vart. Pilləkəndə məhz bu arkonun içərisindədir. Məscidin arkosu ilə yan tərəflərdə boş qalan hissələrin üst dəmir damla örtülmüşdür.Belə ki, məscidin içərisi ortadan iki hissəyə bölünmüşdür.Birinci az olan hissə qadınıar üçün nəzərdə tutulmuş,çox olan hissə isə kişilər üçün nəzərdə tutulmuşdur. Məscidin içəri divarları isə qum-sement məhlulu ilə suvanmışdır.*Şəkil.Bırkandül kənd məscidi.*



**11.Bırədi kənd məscidi.**Bırədi kənd məscidi Lerik rayonunun Bırədi kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir.Bırədi kənd məscidi 1986-cı ildə kənd camatının şəxsi vəsaiti hesabına inşa edilib, lakin bir müddət sonra baxımsızlıq üzündən yarasız hala düşmüşdür.Elə bu səbəbdən də yerli sakinlərin şəxsi vəsaiti hesabına2011-ci ildəyenilənib. Bırədi kənd məscidinin sahəsi 32-m2, insan tutumu 40 nəfər və məscidin dini icması yoxdur. *Şəkil. Bırədi kənd məscidi.*



**12.Bibihoni kənd məscidi.** Bibihoni kənd məscidi Lerik rayonunun Bibihoni kəndi ərazisində yerləşir.Məscid 2002-ci ildə yerli sakinlərin şəxsi maliyyə dəstəyi ilə tikilib və kənd əhalisi də məscidin tinibti işlərində əl birliyi ilə yaxından iştirak edib.Məscidin sahəsi 136 m2,insan tutumu 136 nəfər və məscid 19.06.2015-ci ildə DQİDK-dən dövlət qeydiyyatından keçmişdir. Bibihoni kəndində hal-hazırda yeni tikilmçiş məscid fəaliyyət göstərir.Beləki hazırki məscidin divarları mişar daşlarında, damı isə dəmirlə örtülmüşdür. Məscidin ön tərəfdə eyni ölçülü üç yaşıl rəngli plastik pəncərə var ki, onlarında üstü tağvaridir.Məscid özü hündürlüyü 50 sm olan beton səki üzərində yüerləşir.Anzulu məscidinin pəncərələrinin hündürlüyü 2 metr,eni isə 1.50 sm.dir.Belə ki, məscidin döşəməsi torpaq,tavanı isə taxta materialı ilə xüsusi ustalıqla hörülmüşdür.*Şəkil. Bibihoni kənd məscidi.*



**13.Babakücə kənd məscidi.** Babakücə kənd məscidi Lerik rayonunun Babaküjə kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir.Məscidin sahəsi 60 m2,insan tutumu 60 nəfər və dini icması yoxdur.Babakujə kəndində hal-hazırda yeni məscid fəaliyyət göstərir.Belə ki, yeni məscid ikimərtəbəlidir və hündürlüyü 1 metr olan divarın üzərində yerləşir. Məscidin ön tərəfdən eyni ölçüdə iki plastik pəncərəsi və taxta materialından iki qapısı var.O üzdən də məscidin hər iki tərəfdən də ön hissədə iki hündür pilləkəni var. Ayrıca olaraq pilləkənlər üzərində dam artırılmış və məscidin ümumi damına birləşdirilmişdir.Məscidin damı dəmir materialından damda günbəz mövcuddur.Məscidin dini icması yoxdur.*Şəkil. Babaküjə kənd məscidi.*

**14.Bürsülüm kənd məscidi.**Bürsülüm kənd məscidi Lerik rayonunun Bürsülüm kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir.Məscid 2017-2018-ci illərdə kənd sakinlərinin şəxsi vəsaiti hesabına və Bakı şəhərində yaşayan büsülümlülərin maddi dəstəyi ilə inşa edilmişdir.Məscidin sahəsi 45 m2,insan tutumu 45 nəfər və dini icması yoxdur.Məscidin divarlarıqırmızı kərpicdən tikilmişdir.Məscidin sahəsi 200kv. metr, uzunluğu 25 metr,eni isə 12 metrdir.Bu məscid Lerik rayonunun dağ məscidlərindən biridir və məscidin fasadında iki qapı və beş ensiz, hündür pəncərələr vardır. Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir, qapı və pəncərələr tağlıdır, pəncərələr şəbəkəlidir və hər üç qapının qarşısında artırma vardır.İnteryerdə tavana dayaq məqsədilə beş sütun yerləşdirilmişdir və interyerə suvaq çəkilmiş və üzərinə boya sürülmüşdür. Məscid ortadan iki hissəyə ayrılmışdır.Qadınlar olan

yerdə də şəbistan vardır, şəbistana sol tərəfdən girməkolar. Məscidin minbər və mehrabı var və döşəməsi torpaq,qapı-pəncərələri,tavanı,dayaq sütunları,kum örtüyünün konstruksiyası ağac materialından,dam örtüyü isə kirəmitdəndir.Məscidin hörmə, xarratlıq işlərini isə yerli ustalar görmüşdür.Məscid pilləkənləri daşdandır və beş pilləsi var.Məscidin ön tərəfdə eyni ölçüdə beş taxta pəncərə var.Bu pəncərələrin hündürlüyü 3 metr, eni isə 2, 5 metrdir.



**15.Büzeyir kənd məscidi.** Buzeyir kənd məscidi Lerik rayonunun Buzeyir kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir. Məscid yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-böyüyə qədər yaxından iştirak etmişdir.Məscidin sahəsi 60 m2,insan tutumu 60 nəfər və dini icması yoxdur.Məscid, hündürlüyü 50 sm olan beton səki üzərində tikilmiş və divarları mişar daşları ilə hörülmüşdür. Məscidin damı dəmir təbəqə ilə örtülmüşdür.Məscidin ön tərəfdən eyni ölçüdə qəhvəyi rəngdə plastik pəncərələri və iki giriş qapısı var üstündə yağşdan qorunmaq üçün dəmir dirəklər üstündə dam qurulmuşdur.*Şəkil. Buzeyir kənd məscidi*



**16.Bilnə kənd məscidi.** Bilnə kənd məscidi Lerik rayonunun Bilnə kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir. Məscid yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-

böyüyə qədər yaxından iştirak etmişdir.Məscidin sahəsi 80 m2, insan tutumu 80 nəfər və dini icması yoxdur. Bilnə kənd məscidi hündürlüyü 20 sm olan səki üzərində tikilmişdir.Məscidin divarları əhənglə suvanmışdır. Məscidin ön tərəfində eyni ölçüdə olan ağ plastik pəncərə var. Məscidin döşəməsi torpaq,tavanı isə taxta materialı ilə hörülmüşdür.Məscidin qapısı yan tərəfdə yerləşir.Məscidin damı şifer materialı ilə örtülmüşdür. *Şəkil. Bilnə kənd məscidi.*



**17.Boykəndi kənd məscidi**. Boykəndi kənd məscidi Lerik rayonunun Boykəndi kəndi ərazisində yerləşir.Məscid 2013-2014 - cü ildə yerli sakinlərin şəxsi maliyə dəstəyi ilə tikilib və kənd əhalisi də məscidin tinibti işlərində əl birliyi ilə yaxından iştirak edib. Məscidin sahəsi 90 m2,insan tutumu 90 nəfər və dini icması yoxdur.Boykəndi məscidi hündürlıüyü 10 sm olan səki üzərində yerləşir.Məscidin ön tərəfdən eyni ölçüdə iki kiçik plastik pəncərə və bir ədəd ağ rəngli plasstik qapı var.Məscidin damı dəmir təbəqə ilə örtülmüşdür və damında günbəz var.Məscidin döşəməsin döşəməsi torpaq,tvanı isə taxta materialı ilə hörülmüşdür. *Şəkil. Boykəndi kənd məscidi.*



**18.Cəngəmiran kənd məscidi.**Cəngəmiran kənd məscidi Lerik rayonunun Cəngəmiran kəndi ərazisində yerləşir.Məscidin tikilmə tarixi XX əsrə təsadüf edir.Sovetlər dönəmində anbar kimi istifadə edilib. 1970-ci illərdən sonra kolxoz sədri Ataxan Şiriyevin başçılığı ilə burada təmir işləri aparılıb. Məscid yerli sakinlərinin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-böyüyə qədər yaxından iştirak etmişdir.Məscidin həyətyanı sahəsi 2500 m2, iç sahəsi 48 m2,insan tutumu isə 60 nəfərdir və 26. 07. 2010-cu ildə DQİDK-dən qeydiyyatından keçmişdir.Məscidin dam örtüyü ilk əvvəl qırımızı kirəmitdən olsada hal-hazırda şiferdəndir.İbadət zalının döşəmə və tavanı taxta ilə vurulub.Bütün qapı və pəncərələr düzbucaqlı formadadır.Məscidin ön tərəfində açıqşəkilli eyvan var.Məscidin damında azanverən yer var.*Şəkil. Cəngəmiran kənd məscidi.*



**19.Conu kənd məscidi**.Coni kənd məscidi Lerik rayonunun Coni kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir. Məscid yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-böyüyə qədər yaxından iştirak etmişdir Məscidin sahəsi 30 m2,insan tutumu 30 nəfər və dini icması yoxdur.Coni kənd məscidi birtərəfli olaraq təpə nin yamacında yerləşir və düzbucaqlı formadadır. Məscidin divarları ağ rəngli əhənglə suvanmışdır.Məscidin ön tərəfində eyni ölçüdə

olmaqla dörd ədəd pəncərə yerləşir və pəncərələrin hündürlüyü 1. 80 sm, eni isə 1.30 sm.dir.Məscidin damı şifer materialı ilə örtülmüşdür. *Şəkil. Coni kənd məscidi.*



**20.Camanşair kənd** “ Xanım Fatimeyi Zəhra” **məscidi.** Camanşair kənd məscidi Lerik rayonunun Camanşair kəndi ərazisində yerləşir. Məscid 2009-cu ildə yerli sakinlərin şəxsi maliyə dəstəyi ilə tikilib və kənd əhalisi də məscidin tinibti işlərində əl birliyi ilə yaxından iştirak edib. Məscidin sahəsi 200 m2, insan tutumu 200 nəfər və 15.02.2012-ci ildə DQİDK - dən qeydiyyatından keçmişdir.Camanşair kənd məscidi sahəsinə görə böyük məsciddir və məscid divarları qırmızı kərpiclə yerli ustalar tərəfindən xüsusi ustalıqla hörülmüşdür. Məscidin damı yaşıl təbəqə ilə örtülmüşdür.Məscidin sağ tərəfində hündürlüyü 12 metr olan dairəvi minarə yerləşir.*Şəkil Camaşaır knd məscidi.*



**21.Cənginəvud kənd məscidi.** Cənginəvüd kənd məscidi Lerik rayonunun Cənginəvüd kəndi ərazisində yerləşir.Məscid 2002-ci ildə yerli sakinlərin şəxsi maliyə dəstəyi ilə tikilib və kənd əhalisi də məscidin tinibti işlərində əl birliyi ilə yaxından iştirak edib.Məscidin tutumu 94 m2,insan tutumu 90 nəfər və dini icması yoxdur.Cənginəvüd məscidi qırmızı kərpicdən tikilmişdir. Məscidin həyətyanı sahəsi 200 m2,

uzunluğu 25 metr,eni isə 12 metrdir.Bu məscid Lerik rayonunun yaxşı məscidlərindən biridir. Məscidin ön tərəfdə isə eyni ölçüdə dörd ədəd ağ rəngli plastik pəncərələr vardır. Pəncərələrin hündürlüyü 1.80sm x 1.60-sm.dır.Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir, qapı və pəncərələr tağlıdır, pəncərələr şəbəkəlidir.Məscidin divarları mişar daşlarından hörülmüş və 40 sm hündürlükdə olan səki üzərində yerləşməklə düzbucaqlı formadadır.Məscid ortadan iki hissəyə ayrılmışdır:qadınlar olan yerdə də şəbistan vardır və şəbistana sol tərəfdən girməkolar.Məscidin minbər və mehrabı var və məscidin döşəməsi torpaq,qapı-pəncərələri,tavanı,dayaq sütunları,kum örtüyünün konstruksiyası ağac materialından,dam örtüyü isə kirəmitdəndir.Məscidin hörmə, xarratlıq işlərini isə yerli ustalar görmüşdür.Məscid pilləkənləri daşdandır və üç pilləsi var. Məscidin dam örtüyü şifer materialından olmaqla damında kvadrat formalı günbəz vardır.Belə ki,Cənginəvüd kəndində də Lerik rayonunun digər kəndlərində olduğu kimi əvvəllər məscid olmamışdır. Yerli sakinlər bu səbəblə də qonşu kəndlərdəki məscidlərə və ziyarətgahlara üz tutmuşlar.Lakin bu məsələni həllə etmək üçün kəndin xeyriyyəçi insanları kənd ərazisində məscidin tikilməısinə başlamışıar.Məscidi yerli ustalar tikimiş və kənd əhalisi dəonun tikilməsində yaxından iştirak etmişlər.*Şəkil. Cənginəvüd kənd məscidi.*



**22.Çayrud kənd məscidi-I** Aşağı-Çayrud kənd məscidi Lerik rayonunun Aşağı-Çayrud kəndi ərazisində yerləşir.Məscidin tikilmə tarixi XX əsrə aiddir.Məscid yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-böyüyə qədər

yaxından iştirak etmişdir.Aşağı-Çayrud kənd məscidinin sahəsi 120 m2,insan tutumu 100 nəfər və dini icması yoxdur.Aşağı-Çayrud kənd məscidi Lerikin ənənəvi dağ məscidləri ilə eyni quruiluşa malikdir. Beləki məscid divarları çiy kərpiclərdən yerli ustalar tərəfindən hörülmüş, lakin sonradan üstünə ağ əhənglə suvaq çəkilmişdir.Məscidin dam örtüyü qırmızı kirəmitlə örtülmüşdü. Məscid binası çox da hündür deyil və onun yönlərində kiçik həcmli göy rəngdə bir neçə pəncərə yerləşir. Məscid balaca olsa da onun hündürlüyü 8 metr olan minarəsi vardır. *Şəkil. Aşağı-Çayrud kənd məscidi.*



**23.Çayrud kənd məscidi-II** Çayrud kənd məscidi Lerik rayonunun Çayrud kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir.Məscid yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına tikilib və onun tikintisində yerli sakinlər uşaqdan-böyüyə qədər yaxından iştirak etmişdir. Məscidin sahəsi 112 m2,insan tutumu 98 nəfər və dini icması yoxdur.Köhnə məscid yararsız hala düşdüyündən istifadəsiz hala düşmüş və bu səbəbdən də bu problemi həll etmək üçün kəndin xeyriyyəçi insanlıarı kənddə yeni məscidin tikilməsinə başlamışlar.Çayrud kəndi ərazisindəki hazırki məscidin divarları mişar daşlarından yerli ustalar tərəfindən tikilmiş və onun üzərinə isə qum-sement məhlulu qarışığı suvaq çəkmilmişdir.Məscidinin quruluşu düzbucaqlı olmadığından ön tərəfində eyni ölçüdə yeddi pəncərəsi var ki, bu pəncərələrin üstü tağvari formadadır. Məscidin ön tərəfdən bir giriş qapısı var.Məscidin dam örtüyü şifer materialından olmaqla üzərində kvadrat formalı azanvermək üçün günbəz yerləşir. *Şəkil. Çayrud kənd məscidi.*



**24.Daster kənd məscidi**.Daster kənd məscidi Lerik rayonunun Daster kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi XX əsrə aiddir. Daster kənd məscidi 1985-ci ildə yerli sakinlər tərəfindən inşa edilib.Lakin məscid kənd camaatının şəxsi vəsaiti hesabına 2015-ci -ci ildə təmir-bərpa işləri aparılaraq yenilənmişdir.Daster kənd məscidi 24 m2,35 nəfər. Belə ki, məscidin divarları mişar daşlarından hörülmüşdür. Məscidin ön tərəfində eyni ölçüdə 4 ədəd pəncərə var ki, onların da üst hissəsi tağvari formadadır. Bundan əlavə məscidin ön tərəfində ağ rəngli hündür iki ədəd taxta qapısı var. Həmən qapının qarşı hissəni yağış aylarında qorunmaq üçün dam qurulmamışdır. Məscidin hər iki yan tərəflərində də eyni ölçüdə-2 ədəd, toplam 4 ədəd taxta pəncərə var. Məscidin damnda azan vermək üçün günbəz var.Dini icma yoxdur. *Şəkil. Daster kənd məscidi.*



